Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

20 İYUN 2019-cu il

№ 107 (4005)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# VAŞİNQTON GÖRÜŞÜNDƏN SONRA AZƏRBAYCANIN QARABAĞ DİPLOMATİYASINA ABŞ-ın DƏSTƏYİ DAHA DA ARTACAQ...

səh. 9

Rusiya və Azərbaycanın xüsusi xidmət orqanları günün ən aktual təhlükələrinə qarşı vahid cəbhədə...

səh. 4

Ermənistanın Qarabağ münaqişəsinin əsl mahiyyətini gizlətmək cəhdləri - əsassız ərazi iddialarını xristian-islam savaşı kimi təqdim etmək iflasa uğrayır...

səh. 7

Hərbçi və hüquq-mühafizə işçilərinin 40 faiz artıq əməkhaqqı alması - sosial rifah, daha möhkəm müdafiə və qanunçuluq...

səh. 4

Son 7 ayda 2 dəfə minimum əməkhaqqı artımı, 950 min işçiyə birbaşa təsir - daha nə demək...

səh. 10

Minimum əməkhaqqı artımının inflyasiya yaratmasından ehtiyat edənlərə - yanvardakı islahatlarla dövriyyəyə əlavə 1,5 milyard manat daxil olmuşdu...

səh. 10

Müəllimlərin əməkhaqqının 20 faiz artımı təhsilin keyfiyyətinə birbaşa təsir göstərəcək

səh. 11

Məktəblərdə qadın müəllimlərin mütləq çoxluğa çevrilməsi oğlanların xarakterində özünü göstərməyə başlayır

səh. 15



səh. 5

## Paşinyanın demokratik islahatlar altında dünya qurumlarından pul qoparmaq planları fiaskoda - ümid «Hayastan»ın olmayan 3 milyardına qaldı...



Soçidə Əliyev - Putin - Ruhani zirvəsi «Şimal-Cənub» dəhlizinin inanılmaz potensiallarını üzə çıxara bilər...

səh. 8

Moskva ötən il Paşinyanın hakimiyyətdən aşırdığı milyarderi yenidən onun qarşısına çıxarır...

səh. 6



Prezidentin 2019-cu ilin yanvar və iyun sosial paketlərinin mahiyyət fərqi - islahatın təsiri altına düşənlər üçün yığım imkanları açıldı...

səh. 3

səh. 3

Azərbaycanda iyun sosial inqilabı əhali-dövlət anlaşmasına təsirli hadisə kimi...



səh. 5

Azərbaycan və Ermənistan XİN başçılarının Vaşinqton görüşündə Boltonun iştirak faktoru nə vəd edir...



səh. 13

Lombard əmanətləri də sığortalanacaq...



səh. 14

"Anar müəllim belə bir qənaətə gəldi ki, ya Çingiz Abdullayevdən üzr istəyib AYB-yə qaytarılmağımı xahiş etməliyəm, ya da..."



səh. 13

Sədaqətin, məhəbbətin, dostluğun yaşı olmur, əzizim Zülfiyyə xanım...



## Ramiz Mehdiyev 119 ölkənin hibrid təhlükələrlə birgə mübarizə konfransında çıxış edib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 18-də təhlükəsizlik məsələlərinə nəzarət edən ali nümayəndələrin 10-cu beynəlxalq görüşündə iştirak edib.**



"Trend"in məlumatına görə, Rusiya Federasiyasının Ufa şəhərində keçirilən, 119 ölkənin təmsilçilərinin iştirak etdiyi görüşdə hibrid təhlükələrin artması şəraitində milli təhlükəsizliyin və dayanıqlı iqtisadi-sosial inkişafın təmin edilməsi məsələsi müzakirə olunub.

Ramiz Mehdiyev görüşdə məruzə ilə çıxış edib, hibrid təhlükələrin proqnozlaşdırılması, qabaqlanması və qarşısının alınması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər barədə məlumat verib. Görüşün gündəliyinə, həmçinin, fövqəladə humanitar cavab tədbirləri sahəsində əməkdaşlıq, beynəlxalq informasiya təhlükəsizliyi sistemi və terrorçuluq ideologiyasının yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi daxildir.

Tədbir çərçivəsində Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev, Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas, Moldova Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Artur Qumenyuk və Qırğız Respublikası Təhlükəsizlik Şurasının katibi Dəmir Sıqınbayevlə ikitərəfli görüşlər keçirib. Görüşlərdə Təhlükəsizlik şuraları xətti üzrə əməkdaşlıq məsələləri müzakirə edilib.

## Beynəlxalq Qəzetçilər Cəmiyyətinin baş direktoru Mətbuat Şurasında Əflatun Amaşovla görüşdü

**Beynəlxalq Qəzetçilər Cəmiyyətinin (Kuresel Gazeteciler Konseyi; Global Journalism Council) baş direktoru Mehmet Əli Dim Azərbaycan Mətbuat Şurasında olub.**

Parlament Jurnalistləri Birliyinin dəvətilə ölkəmizdə səfərdə olan qonağı salamlayan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Azərbaycan-Türkiyə media əlaqələrinin hazırkı vəziyyətindən söhbət açaraq bildirib ki, hər iki ölkə arasındakı tarixi dostluq və qardaşlıq münasibətləri jurnalistlərin də qarşılıqlı əməkdaşlığının güclənməsinə təsir göstərməkdədir. MŞ sədri eyni zamanda mövcud sahədə görüləcək işlərin çoxluğuna diqqət çəkib. O bildirib ki, Azərbaycan mediası Türkiyə ilə bağlı məsələlərdə hər zaman monolit mövqedən çıxır edir. Bu mövqe qardaş ölkənin dövlətçilik maraqlarının nəzərə alınmasına söykənmiş yaradıcılıq dəst-xəttinə əsaslanır. Ə.Amaşov rəhbərlik etdiyi qurumun xaricdəki nüfuzlu media təşkilatları ilə əlaqələrindən də söz açıb və vurğulayıb ki, qarşılıqlı əməkdaşlıqda başlıca məqsəd beynəlxalq miqyasda Azərbaycanla bağlı obyektiv rəyin formalaşmasına dəstək göstərməkdən, təcrübə mübadiləsi aparmaqdan ibarətdir.

M.Ə.Dim Azərbaycana səfərinin məqsədləri barədə məlumat verərkən bildirib ki, Beynəlxalq Qəzetçilər Cəmiyyəti tərkibində Türkiyə ilə yanaşı dünyanın bir sıra ölkələrinin jurnalistlərini də birləşdirir. BQC-nin kifayət qədər geniş platforma olduğuna dair fikirlərini bölüşən sədr əlavə edib ki, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı kimi məsələlərin, mövcud xüsusda Azərbaycanın ədalətli mövqeyinin, həmçinin turizm potensialının təbliği üçün qurumun daha sıx fəaliyyət göstərməsinə ehtiyac duyulmaqdadır. O, səfərin bu baxımdan əhəmiyyətli olacağına əminliyini vurğulayıb.

Görüşdə Türkiyənin bəzi media qurumlarında zaman-zaman Azərbaycanla bağlı yanlış məlumatların yayıldığına, bunun ermənipərəst qüvvələr tərəfindən məqsədli şəkildə həyata keçirildiyinə dair fikir mübadiləsi də aparılıb. Belə mənfi təmayüllərə qarşı mübarizə aparılmasının zəruriliyi əsaslandırılıb, qarşıdakı vəzifələr əməkdaşlıq istiqamətləri kimi nəzərdən keçirilib.

## Nur-Sultanda Azərbaycan ticarət evi açılacaq

**2019-cu ilin yanvar-may aylarında azərbaycanlı qeyri-neft məhsulları ixracatçıları ixracın təşviqi proqramı çərçivəsində 5,042 milyon manat vəsait əldə edib.**

"Trend"in məlumatına görə, bunu Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifələrini icra edən Yusif Abdullayev deyib. O qeyd edib ki, bu ilin iyulunda Yekaterinburqda Azərbaycan şərab evi açılacaq. Bundan başqa, Sankt-Peterburqda şərab evinin açılması planlaşdırılır: "Çinin müxtəlif regionlarında şərab evlərinin açılması ilə bağlı danışıqlar aparılır. İyul ayında İsveçrəyə ixrac missiyası baş tutacaq. Bu ölkədə biznes-forumun keçirilməsi planlaşdırılır". Y.Abdullayev əlavə edib ki, bu ilin sonunadək Qazaxıstanın paytaxtı Nur-Sultanda Azərbaycan ticarət evinin açılışı olacaq.

# Prezident İlham Əliyev Vyana Beynəlxalq Konfransına təhlükəsiz dünya quruculuğu üçün əhəmiyyətli mesajlar göndərdi

**Prezident İlham Əliyev "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda Vyana Beynəlxalq Konfransının iştirakçılarına məktub ünvanlayıb.**



Məktubda deyilir: "Hörmətli konfrans iştirakçıları! Sizi - Avstriya Respublikasının Vyana şəhərində keçirilən "Dinlərarası və sivilizasiyalararası əməkdaşlıqdan bəşəri həmrəyliyə" mövzusunda Beynəlxalq Konfransın təşkilatçılarını və iştirakçılarını səmimi qəlbdən salamlayıram.

Nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, görkəmli elm və din xadimlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi bu möhtəbər konfrans dünyada cərəyan edən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dinlərin və milli mədəniyyətlərin qarşılıqlı münasibətləri kimi aktual məsələlərin müzakirəsinə həsr olunmuşdur.

Dünyada sülh, dinc birgəyaşayış, humanizm dəyərlərinin təbliği və təşviqi günümüzün vacib məsələlərindəndir. Müasir dövrün çağırışları bəşəriyyət qarşısında ciddi vəzifələr qoyur. Təsadüfi deyil ki, etnik və dini müxtəlifliyin milli sərvət kimi qorunduğu, bütün konfessiyaların azad fəaliyyəti üçün bərabər şərait yaradıldığı Azərbaycan Respublikasında multikulturalizm və tolerantlıq dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Ölkəmiz müxtəlif mədəniyyətlərin ahəngdar münasibətlərinə və humanitar əməkdaşlıq ideyalarına hərtərəfli dəstək verir, bu sahədə çoxsaylı qlobal təşəbbüslər irəli sürür. Ümumdünya Mədəniyyətlərarası Dialoq və Beynəlxalq Humanitar forumlarının, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun, Dünya dini liderlərinin Zirvə görüşünün Bakıda keçirilməsi Azərbaycanın bu sahədəki fəaliyyətinin beynəlxalq birlik tərəfindən yüksək dəyərləndirildiyinin göstəricisidir. Biz müxtəlif dinlər və sivilizasiyalar arasında əməkdaşlığın genişlənməsinə, qlobal müstəvidə qarşılıqlı etimad mühitinin yaradılmasına mühüm töhfə olacaq daha bir beynəlxalq tədbirin - Dünya dini liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə qərar qəbul etmişik.

Ölkəmizin təşəbbüsü ilə keçirilən hazırkı konfransın təşkilinə Avstriya tərəfindən dəstəyi, konfransın işi üçün yaradılan şəraiti yüksək qiymətləndirirəm. Bu tədbirin birgə keçirilməsi, eyni zamanda, Azərbaycan-Avstriya əlaqələrinin, ölkələrimiz və xalqlarımız arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin bariz nümunəsidir.

İnanıram ki, xoşməramlı niyyətlərə xidmət edən Vyana Beynəlxalq Konfransı konstruktiv müzakirələr ruhunda keçəcək, bəşəri dəyərlərin təbliğinə, xalqlar arasında qarşılıqlı anlaşmaya, sivilizasiyalararası dialoqun və mədəni-mənəvi inteqrasiyanın inkişafına töhfələr verəcək.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm".

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının və "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının iclasları keçirildi...

**Azərbaycan Mətbuat Şurasının Şikayətlər və "Reket jurnalistika"ya qarşı mübarizə üzrə komissiyalarının iclası keçirilib.**




Komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.

İlk olaraq Masallı Rayon Təhsil Şöbəsinin müdiri Tariyel Əkbərovun "7 gun.az " saytına qarşı şikayətini araşdırıb. Komissiya müəyyən edib ki, "7 gun.az" saytı "Nazir müavininin cənub bölgəsinə işgüzar səfəri və onun görmək istəmədiyi gerçəklər" adlı məqaləni hazırlayarkən "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın prinsiplərini pozub. Anonim mənbələr əsasında hazırlanan yazıda əks edilən faktlar araşdırılmayıb, qarşı tərəfin rəyi öyrənilməyib. Saytın təmsilçisi Cavid Şirəliyev materialda əks edilən faktların təsdiqləyən sənədlərə malik olduğunu desə də, onları özü ilə iclasa gətirməyi unutduğunu bildirib. Şikayətlər Komissiyası məsələnin "Reket jurnalistika"ya qarşı mübarizə üzrə Komissiyada müzakirəsini, təqdim edilməsi nəzərdə tutulan sənədlərin geniş araşdırılmasını məqbul sayıb. Gündəliyə daxil edilən digər məsələlər tərəflərin qarşılıqlı razılığa gəlməsi səbəbindən baxılmamış saxlanıb.

Daha sonra MŞ-nin "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının iclası keçirilib. Komissiyanın sədri Vüqar Rəhimzadə gündəlikdə duran məsələlər barədə məlumat verib.

Komissiya üzvləri "Media-Press.org" saytı barədə məsələni müzakirə ediblər. Vüqar Rəhimzadə məlumat verib ki, qeyd edilən sayt üzrə məsələ daha öncə MŞ Şikayətlər Komissiyasının 17 may 2019-cu il tarixli iclasında müzakirə edilib. Amma sayt təmsilçiləri verilən tövsiyələrdən nəticə çıxarmayıblar. Şikayətçi, Ağdaş rayon sakini Məhəmməd Əliyev "Media-Press.org" saytı tərəfindən daha şiddətli təhqirlərə məruz qalması barədə növbəti şikayət ünvanlayıb.

Komissiya üzvləri məsələnin müzakirəsi zamanı "Media-Press.org" saytının fəaliyyətində "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"nın prinsiplərini intensiv şəkildə pozulduğunun, sayt rəhbərliyinin tövsiyə və xəbərdarlıqlardan nəticə çıxarmadığını aşkarlayıblar. "Media-Press.org" saytının adının MŞ-nin "qara siyahı"sına daxil edilməsi barədə rəy verilib.

**Prezident İlham Əliyevin imzaladığı 17 sərəncamla minimum əməkhaqqı, həmçinin, bir sıra dövlət qurumlarında çalışan şəxslərin əməkhaqqında kəskin artım edilib. Sərəncama əsasən sentyabrın 1-dən etibarən Azərbaycanda minimum aylıq əməkhaqqı 180 manatdan 250 manata qaldırılıb.**



*"Onların vəsait toplamaq, ailə büdcələrini artırmaq kimi imkanları yaranacaq"*

# Prezidentin 2019-cu ilin yanvar və iyun sosial paketlərinin mahiyyət fərqi - islahatın təsiri altına düşənlər üçün yığım imkanları açıldı...

***Aydın Hüseynov:** "Hazırda imzalanan sərəncamlar nəyisə kompensasiya etməyə hesablanmayıb"*

Xatırladaq ki, minimum əməkhaqqı bu il martın 1-dən 130 manatdan 180 manata qaldırılmışdı. Həmin zaman artım birbaşa olaraq 600 minədək insanı əhatə edib. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım olub. Minimum əməkhaqqının 180 manata çatdırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldiləcəkdi. Budəfəki artım daha yüksək məbləği - 70 manatı ehtiva edir. Bu isə 600 minədək insanın əməkhaqqının əvvəlkindən daha çox artmasına gətirib çıxaracaq.

Qeyd edək ki, bu islahat paketinə start 2019-cu ilin əvvəlindən verilib. İlin əvvəlində start götürən sosial paketin tərkib hissəsi olaraq minimum əməkhaqqı, minimum pensiya məbləğləri, əlillərə verilən təqaüdlər ciddi şəkildə artırılıb. Ümumilikdə, bu ilin əvvəlində elan olunmuş sosial paket 3 milyon nəfərə yaxın insanı əhatə edib. Bir sıra iqtisadçı analitiklər hesab edirlər ki, ilin əvvəlindəki sosialyönümlü paketlə indikinin arasında fərqlər var. Hər ikisi əhalinin vəziyyətinin yaxşılaşmasına xidmət etsə də, hədəf kimi başqa-başqa nailiyyətlərin əldə olunması hesablanır. Birinci paketdə dünyada baş verən müəyyən iqtisadi proseslərin fonunda ölkə əhalisini əhatə edə biləcək mənfi təsirləri neytrallaşdırmaq nəzərdə tutulurdu. Nəticə etibarilə buna nail olundu. İndiki islahatların və təqdim olunan sosial paketin əhalinin rifahını daha da yaxşılaşdırmağa və əlavə vəsaitlərin yığımına, yeni ailə büdcəsinin artırılmasına hesablandığı qeyd edilir. Bu müqayisəni nə dərəcədə real saymaq olar?

**Millət vəkili, iqtisadçı Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezident ilin əvvəlində sosial paketin tərkib hissəsi olan bir sıra sərəncamları imzalayandan sonra bəyan etmişdi ki, bu addımlar davamlı olacaq:** "Ölkədə həyata keçirilən iqtisadi islahatlar nəticəsində dövlət büdcəsinə böyük miqdarda əlavə vəsaitlərin daxil olduğunu bildirən İlham Əliyev bu artımların bütünlüklə əhalinin sosial rifah halının yaxşılaşdırılmasına yönəldiləcəyini elan etmişdi. Prezident xüsusilə minimum əməkhaqqı və pensiyanın artırılması imkanlarının onun tapşırığı ilə araşdırıldığını və bu istiqamətdə artımların davamlı olacağını bildirmişdi. Göründüyü kimi, üstündən az müddət keçdi və ölkə Prezidenti minimum əməkhaqqının əvvəlkindən daha böyük həcmdə artırılmasına dair sərəncam imzaladı. Bu gün imzalanan sərəncamlar bir daha ölkə rəhbərliyinin yürütdüyü sosial siyasətin əhalinin bütün təbəqələrinin mənafeyinə cavab verdiyini göstərir".

Millət vəkilinin sözlərinə görə, hazırda imzalanan sərəncamlar nəyisə kompensasiya etməyə hesablanmayıb: "Bütün təhlillər göstərir ki, yeni sərəncamların təsiri altına düşəcək şəxslərin bundan sonrakı maddi rifahı daha yüksələcək və onların vəsait toplamaq, ailə büdcələrini artırmaq kimi imkanları yaranacaq. Artıq müəyyən olunur ki, minimum əməkhaqqına görə ölkəmiz MDB-də ikinci yerdə qərarlaşır. Bu sərəncamların nəticəsində iqtisadiyyatımıza bir milyarddan çox vəsait daxil olacaq. Bunun da müsbət təsiri çox olacaq. Əməkhaqqı artan insanlarla yanaşı, bundan digər kateqoriyaların da bəhrələnmək şansı olacaq. Xüsusilə də istehsal və xidmət sektoruna tələbi artıracaq ki, bundan da həmin şəxslər mənfəət əldə edə biləcəklər. Bəli, doğru olaraq bu sərəncamlar arasında müqayisə aparılır və obyektiv nəticəyə gəlinir. Görünən budur ki, bu islahatlar paketində şaxələndirmə xüsusilə nəzərə alınıb. Yeni sərəncamların əhalinin maddi durumu ilə yanaşı, mənəvi vəziyyətinə də müsbət təsiri olacaq. Çünki ailənin rifahı yüksələndə, onun gəlirləri və yığım büdcəsi artanda insanların mənəvi-psixoloji vəziyyəti də qənaətbəxş olmağa başlayır. Ümumilikdə, davamlı xarakter daşıyan sosial islahatlar paketini müsbət dəyərləndirirəm və əminəm ki, bu istiqamətdə daha yeni addımların şahidi olacağıq".

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər davam etdirilir. Prezident İlham Əliyev əhalinin rifahının yüksəldilməsi məqsədilə növbəti sosial paketi təsdiq edib.**



*"Görülən işlər həm də firəvan dövlət konsepsiyasının icrası istiqamətində atılan addımlardır"*

# Azərbaycanda iyun sosial inqilabı əhali-dövlət anlaşmasına təsirli hadisə kimi...

***Əliməmməd Nuriyev:** "Bu, cəmiyyətdə dövlət orqanlarına inam və etimadın daha da güclənməsinə gətirib çıxaracaq"*

Ölkə başçısının dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının böyük dərəcədə artırılması barədə iyunun 18-də imzaladığı sərəncamlar dövlətin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə göstərir. İyunun 18-də imzalanan 17 sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Bu sərəncamlar, ümumilikdə, 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

İqtisadi sahədə əldə edilən böyük uğurların sosial sferaya transformasiyası dövlət başçısının bəyan etdiyi sosial-iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən ölkə vətəndaşlarının sosial təminatını əhəmiyyətli dərəcədə artırıb. Dövlət büdcəsində formalaşan əlavə gəlirlərin bilavasitə vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəldilməsi ölkənin kompleks iqtisadi inkişafı fonunda dövlət-vətəndaş etimad mühitini dərinləşdirir. Əhalinin dövlətə olan inam və etimadı daha da artır. Bütün bunların fonunda, Prezidentin sosial paketinin ölkədə dövlət-vətəndaş anlaşmasının dərinləşməsində rolu nə olacaq?

**Məsələyə münasibət bildirən Konstitusiya Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyevin sözlərinə görə, sosial paket dövlət-vətəndaş etimad mühitini daha da dərinləşdirəcək:** "Ümumən, son bir il ərzində ölkə başçısı tərəfindən çox əhəmiyyətli mühüm fərman və sərəncamlar imzalanıb, bir sıra proqramlar qəbul edilib. Bütün bunlar onu göstərir ki, ölkə başçısı tərəfindən verilən bütün vədlər həyata keçirilir. Cənab Prezident demişdi ki, genişmiqyaslı islahatlar olacaq və sosial-ictimai həyatın bütün sahələrini əhatə edəcək. Belə də oldu və sistemli şəkildə bütün addımlar atılır. Son sosial paket çox genişmiqyaslıdır. Bu ilin əvvəlində minimum əməkhaqqı artırıldı. Nəticədə bu rəqəm 180 manat oldu. Bu dəfə isə minimum əməkhaqqının həcmi 250 manata çatdırıldı. Qəbul olunan əvvəlki və indiki sosial paket, bütövlükdə, 2 milyon nəfər ölkə vətəndaşını əhatə edir. Bu çox ciddi nəticədir. Bundan əvvəlki illərə baxsaq görərik ki, artımlar 5, 8, 10 faiz olub. İndiki kimi böyük artımlar bir neçə il əvvəl olmayıb. Görülən işlər həm də firəvan dövlət konsepsiyasının icrası istiqamətində atılan addımlardır.

Bütün bunlar ölkə əhalisinin vəziyyətinin daha da yaxşılaşmasına gətirib çıxaracaq. Bu həm də Prezidentə olan inam və etimadın dərinləşməsini bir daha göstərəcək. Ölkə başçısı bütün problemlərin həlli ilə bağlı sistemli işlər həyata keçirir. Eyni zamanda, bu həm də cəmiyyətdə dövlət orqanlarına inam və etimadın daha da güclənməsinə gətirib çıxaracaq. Ölkənin sabahına olan ümidləri daha da artıracaq".

***Vidadi ORDAHALLI***

# Hərbçi və hüquq-mühafizə işçilərinin 40 faiz artıq əməkhaqqı alması - sosial rifah, daha möhkəm müdafiə və qanunçuluq...

**Məlum olduğu kimi, Prezident İlham Əliyev hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz artırılması barədə sərəncam imzalayıb.**



## Üzeyir Cəfərov: "Hərbi və hüquq-mühafizə orqanlarında çalışanların məvaciblərinin artırılması ölkənin müdafiə qüdrətini daha da gücləndirəcək"

Sərəncama əsasən, güc qurumlarının hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq pul təminatı vəzifə maaşları orta hesabla 40 faiz həcmində artırılır. Sözügedən sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

Hərbçilərin sosial müdafiəsi dövlət rəhbərliyinin daim diqqət mərkəzində olan əsas məsələlərdəndir. Ölkənin iqtisadi potensialı gücləndikcə, bu istiqamətdə görülən işlərin miqyası daha da genişlənir. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən, əsgər və zabitlərin xidmət şəraitinin müasirləşdirilməsi ilə yanaşı, hər cür infrastrukturu olan hərbi şəhərciklərin tikilməsi, hərbi qulluqçuların sosial məsələlərinin həlli onlara göstərilən diqqətin nəticəsidir. Eyni zamanda, onların əməkhaqlarının davamlı olaraq artırılması, verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsi, hərbçilərin ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət problemlərinin həlli bir daha sübut edir ki, hərbi qulluqçular hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Bu baxımdan, Prezidentin son sərəncamını ekspertlər necə dəyərləndirirlər? Artımlar hansı formada özünü göstərəcək?

**Bütün bu və digər məsələləri "Bakı-Xəbər"ə şərh edən hərbi ekspert Üzeyir Cəfərov bununla bağlı bir sıra məqamlara aydınlıq gətirdi:** "Görünən odur ki, ölkə başçısı güc strukturları ilə bağlı zaman-zaman önəmli addımlar atır. Bu önəmli addımlardan biri də odur ki, 2019-cu il üçün müdafiə və təhlükəsizlik sektoruna 3 milyard, 370 milyon manat vəsait ayrılıb. Bu da 2018-ci illə müqayisədə 4,6 faiz çoxdur. Deməyim odur ki, bu sahəyə ayrılan vəsaitin həcmi ilbəil artırılır. Bunun birinci səbəbi odur ki, hələlik torpaqlarımız işğal altındadır. O üzdən, həm silah-sursat alınır, həm də hərbçilərin rifah halı yaxşılaşdırılır. Bütün bunları nəzərə alan ölkə rəhbəri tərəfindən sentyabrın 1-dən Silahlı Qüvvələrdə və ümumiyyətlə, bütün güc strukturlarında, o cümlədən, digər sahələrdə çalışan insanların rifahını yaxşılaşdırmaq üçün sərəncam imzalanıb. Artıq qərar var ki, hələlik mənzili olmayan hərbi qulluqçular üçün kirayə haqqı 150 manata qaldırılsın. Bunun özü çox böyük müsbət dəyişikliklərdir. Çünki indiyə qədər buna görə verilən kirayə pulunun həcmi aşağı idi. Bəzən belə fikirlər səslənirdi ki, hərbçilər həmin pulla Bakıda və digər şəhərlərdə ev kiraləyə bilməz. Artıq bu pul 150 manatdır. Sözügedən kirayə pulu hərbçinin özü və ailə üzvləri üçün nəzərdə tutulur. Bütün hallarda, sözügedən vəsait hərbçilər üçün mühüm dəstəkdir. Eyni zamanda, hərbçilərin məvaciblərinin 40 faiz artırılması nəzərdə tutulub. Bu sahədə elə adam var ki, 250 manat məvacib alır. Onların məvacibi 40 faiz artırılacaq. Elə hərbçilər var ki, aldığı məvacib 600-700 manatdır. Bu həcmdə maaş alan hərbçilərin məvacibi 10 faiz artırılacaq. Bu o məqsədlə edilir ki, aradakı balans pozulmasın və büdcəyə əlavə yük düşməsin. İstənilən halda, verilən qərar təqdirəlayiqdir və bu, hərbçilərin sosial durumuna müsbət təsir edəcək. Qarşıdan Silahlı Qüvvələr Günü gəlir. Bildiyim qədər, zabit və gizirlərə yeni mənzillərin verilməsi gözlənir. Eyni zamanda, bəzi digər sosialyönümlü tədbirlər gözlənir. Bütövlükdə, hərbi və hüquq-mühafizə orqanlarında çalışanların məvaciblərinin artırılması ölkənin müdafiə qüdrətini daha da gücləndirəcək. Eyni zamanda, ölkədə ictimai asayişin qorunmasına öz müsbət təsirini göstərəcək".

*"Eyni zamanda, ictimai asayişin qorunmasına öz müsbət təsirini göstərəcək"*

***Vidadi ORDAHALLI***

# Rusiya və Azərbaycanın xüsusi xidmət orqanları günün ən aktual təhlükələrinə qarşı vahid cəbhədə...

**Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti təhlükəsizlik məsələlərinə nəzarət edən ali nümayəndələrin 10-cu beynəlxalq görüşündə iştirak edib. Rusiyanın Ufa şəhərində keçirilən, 119 ölkənin təmsilçilərinin iştirak etdikləri görüşdə hibrid təhlükələrin artması şəraitində milli təhlükəsizliyin və dayanıqlı iqtisadi-sosial inkişafın təmin edilməsi məsələsi müzakirə olunub.**




## Arzu Nağıyev: "Son vaxtlar Azərbaycanın şimal, Rusiyanın cənub istiqamətlərində aparılan birgə tədbirlər və onların uğurlu alınması göstərir ki..."

R.Mehdiyev görüşdə məruzə ilə çıxış edib, hibrid təhlükələrin proqnozlaşdırılması, qabaqlanması və qarşısının alınması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Görüşün gündəliyinə, həmçinin, fövqəladə humanitar cavab tədbirləri sahəsində əməkdaşlıq, beynəlxalq informasiya təhlükəsizliyi sistemi və terrorçuluq ideologiyasının yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi daxildir.

Tədbir çərçivəsində Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevlə Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev arasında görüş olub. Görüş zamanı iki ölkənin güc qurumları və xüsusi xidmət orqanlarının qarşılıqlı fəaliyyəti, həmçinin, bu ilin sonunadək təhlükəsizlik sahəsindəki əməkdaşlıq planı müzakirə olunub. Göründüyü kimi, yaxın qonşumuz olan Rusiya ilə bizim xüsusi xidmət və güc qurumları arasında koordinasiyalı fəaliyyətin olduğu nəzərə çarpır. Bu istiqamətdə olan yaxın əməkdaşlıq ölkələrimizi hansı ümumi təhlükələrdən qoruya bilir?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ufada keçirilən görüşü mühüm əhəmiyyətli saymaq olar:** "Orada dünyanın müxtəlif ölkələrində təhlükəsizlik sahəsinə cavabdeh olan çoxlu sayda ali qonaq iştirak edib. Əsas məsələ qlobal təhlükəsizliklə bağlı olub. Bilirsiniz ki, bu cür təhlükələr bəşəri xarakter daşıyır. Onlarla hansısa ölkənin təkbaşına mübarizə aparması da effekt vermir. Çox maraqlıdır ki, görüşün yeri kimi 5 il əvvəl Kazan, bu gün isə Ufa seçilib. Hər iki şəhər Rusiyanın müsəlman inanclı kateqoriyasının yaşadığı məkan kimi tanınır. Burada da məqsəd odur ki, məhz təhlükəsizlik təhdidinin qarşısının alınmasında Rusiyanın müsəlman kəsiminin də aktiv rola malik olması diqqətə çatdırılsın. Azərbaycan həmin tədbirdə çox yüksək statusda, cənab Ramiz Mehdiyev səviyyəsində təmsil edilib. Akademikin keçirdiyi əsas görüşlərdən biri Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə oldu. Həmin görüşdə təhlükəsizlik sahəsində olan əməkdaşlığımızın genişlənməsi ilə bağlı razılaşma əldə edildi. Biz kibertəhlükəsizliklə mübarizədə birgə fəaliyyət göstərə bilərik. Rusiya nümayəndəsi bu məsələni xüsusi qabartdı ki, ABŞ və Qərbin bəzi dairələri Rusiyaya həmin sahədə problemlər yaradır. Regional təhlükəsizlik məsələlərinə gəldikdə, təbii ki, Azərbaycanla Rusiyanın xidmətləri arasında ikitərəfli əlaqələr mövcuddur. Biz həm MDB, həm də digər məkanlarda uğurlu əməkdaşlıq edirik. Son vaxtlar Azərbaycanın şimal, Rusiyanın cənub istiqamətlərində aparılan birgə tədbirlər və onların uğurlu alınması göstərir ki, bizim məlumat mübadiləmiz var. Biz ümumi təhlükə hesab etdiyimiz məsələlərlə bağlı bir-birimizə ötürdüyümüz informasiyalar əsasında tədbirlər keçirə bilirik. Azərbaycan coğrafi mövqeyinə görə çox həssas nöqtədədir. Burada məlumatların toplanması mühüm əhəmiyyət kəsb edir. Bu da Rusiya və Azərbaycan arasında uğurla davam etdirilir. Bizim ümumi mübarizə apardığımız və real nəticələr əldə etdiyimiz sahələr narkotiklərin qanunsuz dövriyyəsi, terrorizm, qanunsuz pulların "yuyulması" və s. istiqamətindədir. Bu cinayətlərin həyata keçirilməsində hədəf kimi hər iki ölkənin ərazisi seçilir. Əldə olunan razılaşmaların ruhundan hiss edilir ki, bundan sonra da bizim təhlükəsizliyimizə olan təhdidlərin neytrallaşması daha da asanlaşacaq. Görüşdə cənab Ramiz Mehdiyev Azərbaycanı və regionu ciddi narahat edən erməni terrorizmdən də danışıb. Bu amilin aradan qaldırılması isə bütün region və dünya üçün mühüm əhəmiyyət kəsb edir".

***Məhəmmədəli QƏRİBLİ***

# Paşinyanın demokratik islahatlar altında dünya qurumlarından pul qoparmaq planları fiaskoda - ümid "Hayastan"ın olmayan 3 milyardına qaldı...

**Ermənistan rəhbərliyi olduqca ağır sosial-iqtisadi vəziyyətdə yaşayan ölkə əhalisinin başını qatmaq üçün müxtəlif şoular düzəldir. Paşinyan dünya fondları və ölkələrindən pul dilənməyin fayda vermədiyini gördüyü üçün, "ailə büdcəsi" yaratmağı, əhalidən olan-qalan qəpik-quruşunu da toplamağı düşünür.**



## *Hatəm Cabbarlı: "Daşınan su ilə dəyirman çarxı dönməz"*

Erməni KİV-inin verdiyi məlumata görə, Baş nazir Nikol Paşinyan "Hayastan" ümumerməni fondunun xeyriyyələr şurasının üzvlərini ümumerməni büdcəsini yaratmaq ideyasını müzakirə etməyə səsləyib.

İyunun 18-də "Hayastan" ümumerməni fondunun illik iclasında Paşinyan qeyd edib: "Yeni zəmanələrdə təəssüflər olsun ki, obyektiv və subyektiv olaylar baxımından çoxları erməni gündəmindən uzaqlaşır və beləliklə də erməni mənliyindən kəsilir. Erməni mənliyi və ya gündəmi çərçivəsində gəncləri geri qaytarmaq, yaxud saxlamaq bir problemdir ki, onunla həm də Fond məşğul olmalıdır. "Hayastan" bütün Ermənistan üçün pul almaq və ya pul xərcləmək üçün bir yer olmamalıdır. Bu baxımdan, məncə, ümumerməni büdcəsi ideyası cəlbedicidir". Nikol Paşinyan bildirib ki, bu üsulla onlar 3-4 milyardlıq bir fond yarada bilərlər və həmin pulları milli məsələlərin həlli yolunda xərcləməyə nail olarlar.

Qeyd edək ki, Paşinyanın dünya fondlarından maliyyə almaq cəhdləri baş tutmayıb. Yalnız Avropa Birliyindən 25 milyon avro vəsait cəlb e?məyə nail olsa da, bu, bir ölkə üçün çox aşağı rəqəmdir. Belə olan təqdirdə, Paşinyanın "Hayastan" oyunu baş tuta bilərmi?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Paşinyan hakimiyyətə gələndən sonra ölkənin qarşılaşdığı iqtisadi problemləri həll etmək istiqamətində ciddi bir uğur qazana bilməyib:** "Buna ölkənin dünya bazarına çıxara biləcəyi strateji məhsullarının olmaması, yürütdüyü işğalçı siyasət səbəbindən blokadaya salınması, ölkədəki korrupsiya və məmur özbaşınalığı imkan vermir. Bilirlər ki, vəziyyət yaxşıya deyil, daha acınacaqlı səmtə yön götürüb. Nikol Paşinyan "Hayastan" fondu ilə bağlı qəribə bir ideya irəli sürüb. Məzmunu budur ki, bütün dünya ermənilərı "ailə büdcəsi" deyilən nəsə yaratsınlar. Yığılması təklif edilən məbləğ təxminən Ermənistan dövlətinin büdcəsi qədərdir. Paşinyanın bu ideyası onu göstərir ki, ölkədə ciddi böhran var. Eyni zamanda, dövlət xətti ilə xaricdən qrantlar almaq müşkülə çevrilib. Onun yeganə yolu qalır, Ermənistan əhalisinin və dünyadakı erməni diasporunun cibinə köklənməyə. Erməni diasporu daim erməni dövlətinə yardımlar edib. Amma həmin yardımların təyinatı üzrə xərclənmədiyinə dair daim qalmaqallar qopub. Keçmiş hakimiyyətin dönəmində biz bu məsələlərin mediada müzakirə edildiyini də görmüşük. Əvvəla 3-4 milyardın həmin fonda toplanması mümknü deyil. İkincisi, hətta belə bir büdcə formalaşsa belə, onun xərclənməsi ilə bağlı kimə hesabatın veriləcəyi qeyri-müəyyəndir. Bu da qəyyumlar arasında ciddi fikir ayrılığına səbəb ola bilər. Sonra həmin vəsaitin kimin ambisiyalarına xidmət edəcəyi sual altındadır. Bilinmir ki, ondan dövlət yararlanacaq, yoxsa diaspor? Nikol Paşinyanın yığılan pulun sərfi ünvanı ilə bağlı belə bir fikri var: "Bizim ambisiyalarımızın ölkə daxilində və xaricində həyata keçməsinə kömək edəcək".

*"Paşinyan bununla diaspor yardımlarını və ona nəzarəti də öz üzərinə götürmək istəyir"*

"Bizim" deyəndə Paşinyanın konkret kimi nəzərdə tutduğu da bəlli deyil. 30 ildir problemlər içində boğulan ölkənin vəziyyətini belə ifadə edə bilərik. Daşınan su ilə dəyirman çarxı dönməz. Böyük ehtimalla Paşinyan bununla diaspor yardımlarını və ona nəzarəti də öz üzərinə götürmək istəyir. Qənaətimə görə, bu mümkün olan məsələ deyil. Yığılsa da, çox cüzi məbləğdən söhbət gedəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan və Ermənistan XİN başçılarının Vaşinqton görüşündə Boltonun iştirak faktoru nə vəd edir...

**Dağlıq Qarabağla bağlı danışıqların növbəti raunduna start verilir. Budəfəki təşəbbüsü ABŞ götürmək istəyir. ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanla görüşəcəyini bildirib. Bu barədə o, özünün "Twitter" səhifəsində yazıb:**



## *Nəzakət Məmmədova: "Tramp administrasiyası öz Cənubi Qafqaz siyasətini "qırğılar"a həvalə etməklə Rusiyaya və İrana bundan sonrakı siyasətinin sərt olacağı mesajını vermiş olur"*

"Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında dialoqun davamına imkan yaratmaq üçün onlarla görüşü səbrsizliklə gözləyirəm".

Onun sözlərinə görə, rəsmi Vaşinqton regionda sülh məsələsinin irəliləyişində kömək göstərməyə hazırdır.

İyunun 20-də baş tutacaq görüşün müsbət nəticəsilə bağlı ümidlərin az olduğu qənaəti hasil olur. Çünki sözügedən görüş Ermənistanın açıq təxribatları və sülh danışıqlarını pozmaq cəhdi fonunda baş tutacaq. Son günlər ərzində biz təmas xəttində ermənilərin açıq şəkildə törətdikləri təxribatları görürük. Danışıqlar prosesinin aktiv fazasında onlar ordumuzun mayorunu snayperdən açılan atəşlə öldürdülər. Sonra isə daha bir əsgərimiz şəhid oldu. Ermənistanın müdafiə naziri açıq mətnlə dedi ki, Azərbaycan əsgərinin öldürülməsinə göstərişi şəxsən onun özü verib. Hətta həmin əmri icra edən erməni əsgərini şəxsən mükafatlandırdı. Eləcə də Ermənistan rəhbərliyinin verdiyi bəyanatların ruhundan hiss edilir ki, onlar hər vəchlə sülh prosesini ləngitməkdə maraqlıdırlar. Digər diqqətçəkən məqam isə bu görüşə ABŞ-ın baş diplomatı kimi tanınan dövlət katibi deyil, Boltonun vasitəçilik etməsidir. Adətən belə formatda olan görüşlərə həmsədr ölkənin xarici işlər nazirləri vasitəçilik edirlər. Məlumdur ki, Boltonun ötən il münaqişə zonasına səfəri olub. Hər iki ölkə rəhbərliyi ilə təmasları baş tutub. Tərəflər arasında görüşün məhz Boltona həvalə olunması nəyin əlaməti sayıla bilər?

**Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ABŞ Cənubi Qafqaz regionu üzrə prosesləri idarə etməyi Prezidentin milli təhlükəsizlik müşaviri Con Boltona həvalə edib:** "Bolton ötən ilin oktyabr ayında regiona səfər edib mühüm mesajlar verməklə, ABŞ-ın regiondakı proseslərdə fəal iştirakçı olmaq niyyətini ortaya qoymuş oldu. Dövlət katibi Mayk Pompeoya deyil, milli təhlükəsizlik müşaviri Con Boltona bu məsələlərin həvalə olunmasının bir neçə səbəbi ola bilər. Əvvəla Tramp administrasiyası öz Cənubi Qafqaz siyasətini "qırğılar"a həvalə etməklə Rusiyaya və İrana bundan sonrakı siyasətinin sərt olacağı mesajını vermiş olur. Pompeo və Bolton eyni düşərgəyə - "qırğılar"a mənsubdurlar və Cənubi Qafqaz regionunun o düşərgənin nümayəndələrinin kurasiyasına verilməsi ABŞ siyasətinin xarakterini göstərir".

Politoloqun sözlərinə görə, ABŞ indiyədək Sayrus Vensdən başlayaraq regiona zaman-zaman öz missiyalarını göndərib və hazırda bu missiyanı davam etdirir: "ABŞ müəyyən regionlara təcrübəli diplomatlar təyin etməklə uğurlu xarici siyasətini təmin etmiş olur. Məsələn, "məkik diplomatiya"sının banisi Kissincer uzun illər Yaxın Şərq siyasətini həyata keçirən aparıcı fiqur olmuşdu. Cənubi Qafqaz isə siyasi şəraitə və geosiyasi mövqeyə görə mürəkkəb regionlardan hesab olunur. Belə ki, burada xidmət etmiş diplomatlar, səfirlər sonradan, bir qayda olaraq, dünyanın qaynar bölgələrinə təyinat alırlar. Boltonun təyinatı da ABŞ-ın regiona marağının artdığı indiki dövrdə təcrübəli diplomatı təyin etməklə prosesləri uğurla idarə etmək planlarından xəbər verir".

Nəzakət Məmmədovanın sözlərinə görə, onun Putinlə sərt polemikaları, Paşinyana ultimativ xarakterli göstərişləri də Boltonun Moskva və Tehran arasında sıxışmış bölgədə çevik, ağıllı, fövqəldövlətin maraqlarının təmin edilməsinə yönəlmiş siyasət həyata keçirəcəyini deməyə əsas verir.

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanı son dövrlərdə müxtəlif təzyiq vasitələri ilə sıxışdıran Rusiya İrəvana qarşı daha bir sərt addım atmağa hazırlaşır. Söhbət Rusiyada olan erməni milyarderlərin vasitəsilə İrəvana təzyiq göstərilməsindən gedir. Hesab edilir ki, Rusiyadakı erməni milyarderlər Ermənistandan kapitallarını geri çəkməyə başlasa, bu ölkə indiki ilə müqayisədə daha acınacaqlı duruma düşəcək.**

# Moskva ötən il Paşinyanın hakimiyyətdən aşırdığı milyarderi yenidən onun qarşısına çıxarır...

Erməni mediasında yayılan məlumatlara görə, İrəvan Moskvanın şərtlərini qəbul etmək istəməsə, Kreml erməni milyarderlər vasitəsilə də Ermənistana qarşı təzyiq rıçaqlarını işə salacaq. Moskvanın şərtlərini isə bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyana erməni əsilli rusiyalı milyarder-oliqarx, "Taşir" qrupunun sahibi Samvel Karapetyan çatdırıb. Xatırladaq ki, Paşinyan hakimiyyətə gəldikdən sonra "Taşir"lə bağlanmış müqavilədən imtina edib. Buna qədər isə Samvel Karapetyan Ermənistanın elektrik enerjisi bazarında da mütləq inhisarçı idi. 2015-ci ildə o, "Ermənistan Elekrik Şəbəkəni" satın almış, 2017-ci ildə isə "Ermənistan Yüksək Gərginlikli Elektrik Şəbəkəsi"ni idarə etmək üçün etibarnamə almışdı. Ermənistanda belə hesab edirdilər ki, Moskva bütün Ermənistanı "öz milyarderinə", yəni Karapetyana etibarnamə ilə idarəetməyə verib. 2016-cı ildə Rusiyanın "Qazprom" şirkətinin top-meneceri olan Karen Karapetyanın baş nazir təyin olunması da bunu təsdiq edirdi. Bütün bu proseslər Serj Sarkisyanın Ermənistan prezidenti olduğu dönəmdə problemsiz baş verirdi. Mütləq hakimiyyətə malik olan Serj Sarkisyan baş nazir olmaq üçün uğursuz cəhdindən sonra istefaya getdi. Deməli olar ki, onunla eyni vaxtda Rusiya tərəfindən təyin edilmiş baş nazir Karen Karapetyan da hökuməti tərk etdi. Ermənistanda baş verən "məxməri inqilab" əvvəlki müqavilələrin, o cümlədən də Ermənistanla Rusiya arasında bağlanan sazişlərin ləğvinə gətirib çıxardı. Bundan ən çox qəzəblənən tərəflərdən biri isə Rusiya oldu.

Baş verənlər fonunda Rusiyanın Ermənistana satdığı qazın qiymətində artımlara getməsi, sərmayə axınını azaltması İrəvan üçün artıq müəyyən şoklar yaratdı. Bunun ardınca erməni milyarderlərin kapitalını Rusiyadan çıxarmağa başlaması Paşinyanı pis vəziyyətə saldı. Vəziyyət belə davam edəcəyi təqdirdə Paşinyan daha acınacaqlı bir duruma düşəcəyinin yaxşı fərqindədir. Elə bu fonda belə qənaət yaranıb ki, Karapetyan Ermənistana yeni layihələrlə bağlı gəlib. Çünki yuxarıda qeyd olunduğu kimi, Paşinyanın hakimiyyətə gəlişindən sonra erməni əsilli rusiyalı milyarderlər Ermənistana pul qoymaqda tərəddüd edir, hətta pullarını geri çıxaranlar da olub. "İrates" qəzeti isə yazır ki, Samvel Karapetyan Ermənistan Baş naziri Nikol Paşinyana Kremldən xüsusi mesaj



gətirib: "Nikol Paşinyan-Samvel Karapetyan görüşü bəzi dairələrdə ikincinin Ermənistana yeni iqtisadi proqramlar haqqında danışmaq üçün gəldiyi barədə təəssürat yaradıb. Əslində isə Karapetyan Paşinyana Kremldən xəbər gətirib. O, Ermənistana səfir kimi gəlib və Paşinyana hesablaşması gərəkdiyi rus elitasının mesajlarını çatdırıb. Bu mesajlar iqtisadi və siyasi mahiyyət daşıyır. Xüsusi qeyd olunmalıdır ki, Karapetyan Paşinyanla Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündən bir neçə gün öncə görüşüb. Yəqin ki, Rusiyada yaşayan erməni oliqarxın Paşinyana xəbəri həm də bununla bağlıdır. Bəlkə Rusiyada yaşayan erməni oliqarxın gətirdiyi xəbərlər arasında bu görüşlə bağlı da nəsə olub? Mənbə deyib ki, bəli, ola bilər". Qəzet yazır ki, Paşinyan Rusiyadan gələn siyasi, iqtisadi tələbləri qəbul etməyə məcburdur. Əks təqdirdə Rusiyadan asılı olan Ermənistan iqtisadiyyatı daha sürətlə çökəcək. Bu isə Paşinyan üçün ciddi zərbədir. Amma məsələnin digər maraqlı tərəfi bundan ibarətdir ki, Paşinyan Rusiyanın şərtlərini qəbul etməklə Qərbdən tamam uzaqlaşmış olacaq. Belə olan təqdirdə erməni cəmiyyətinin Qərb ümidlərinin üzərindən xətt çəkiləcək. Eyni zamanda, Qərb ölkələrinin Ermənistana qarşı artıq sərt mövqedən çıxış etməsi də qaçılmaz olacaq.

Erməni mediası yazır ki, məhz bütün bunlara görədir ki, heç bir Qərb investoru, hətta Qərbdəki zəngin ermənilər Ermənistana maraq göstərmir. Nəticədə, inqilabdan keçən müddətdə ölkədə nə işsizlik, nə də yoxsulluq azalıb. Ermənistandan kütləvi köç də səngiməyib, əksinə, artıb. Əhalinin dolanışığı yaxşılaşmayıb, xarici borclar çoxalıb. Bildirilir ki, ABŞ və Qərb Ermənistanda ötən il baş tutan inqilaba dəstəyi yeganə o səbəbə görə vermişdi ki, yeni hakimiyyət Ermənistanın Rusiya qarşısında müstəqil xarici siyasət kursuna üstünlük verəcək, Rusiyadan asılılığı minimuma endirmək üçün gərəkən addımlar atacaq. Amerika isə hətta aydın şəkildə ona da işarə vurmuşdu və vurur ki, yalnız bundan sonra Ermənistan ABŞ-ın böyük sərmayələrinə ümid bəsləyə bilər. Amma Paşinyanın siyasəti nəticəsində Rusiyadan asılılıq azalmaq əvəzinə artdı. Üstəlik, yeni hökumətin qəbul elədiyi proqramda, əvvəlki kimi, Rusiya Ermənistanın əsas təhlükəsizlik qarantı və xarici siyasət prioriteti elan edildi. Bütün bunlar Qərbin Ermənistandan üz döndərməsinə gətirib çıxarıb. Rusiya isə bu şəraitdə daha rahat şəkildə Ermənistana öz şərtlərini diqtə edir.

***Tahir TAĞIYEV***

# ABŞ S-400-lərə görə Türkiyəni cəzalandırmaq üçün üç sanksiya paketi ətrafında müzakirələrə başladı



**ABŞ prezidenti Donald Tramp Türkiyəyə Rusiyadan S-400 raketdən müdafiə sistemləri almasına görə sanksiya tətbiq etməyi düşünür.**

Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, "Bloomberg News" mənbələrə istinadən Trampın Türkiyəni cəzalandırmaq üçün üç sanksiya paketi üzərində düşündüyünü yazır. Xəbərdə, Türkiyə S-400 alışına davam etdiyi təqdirdə F-35 satışının dayandırılmasından əlavə digər variantların da tətbiq oluna biləcəyi yer alıb.

Ən çox dəstəklənən variant isə Türkiyənin əsas müdafiə sistemi sektorundakı bəzi şirkətləri "Amerikanın Rəqiblərinə Qarşı Sanksiyalar Vasitəsilə Mübarizə qanunu" kimi tanınan və Rusiya ilə əməkdaşlıq edən təşkilatları hədəf alan CAATSA çərçivəsində hədəf alınmasıdır.

Sanksiyalar bu şirkətlərin ABŞ-ın maliyyə sistemi ilə əlaqəsini kəsərək, ABŞ-dan ehtiyat hissələri alışını və ABŞ-a satışı tamamilə qadağan edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistanın Qarabağ münaqişəsinin əsl mahiyyətini gizlətmək cəhdləri - əsassız ərazi iddialarını xristian-islam savaşı kimi təqdim etmək iflasa uğrayır...

**Azərbaycan torpaqlarını uzun illərdir işğal altında saxlayan Ermənistan işğalçılıq siyasətindən əl çəkmək əvəzinə, Dağlıq Qarabağ münaqişəsi ətrafında müxtəlif oyunlar qurur. Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsi üçün BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi mövcud olsa da, Ermənistan sözügedən sənədlərə məhəl qoymur. İşğal altında saxladığı Azərbaycan torpaqlarında beynəlxalq qanunlara zidd əməllər törədir.**

Məlumdur ki, Çar Rusiyasının dəstəyilə Qafqaza iki əsr əvvəl köçürülən ermənilər Azərbaycan torpaqlarında yerləşdirilib. Yerlərini möhkəmləndirdikdən sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürən ermənilər öz havadarlarının köməyi, maliyyə dəstəyilə ərazilərimizin müəyyən bir qismini zəbt ediblər.

İşğalçı dövlət olan ermənilər Qarabağ münaqişəsinin əsl mahiyyətini hər zaman gizlətməyə cəhd ediblər. Bütün dünya bilir ki, Ermənistan silah gücünə, eyni zamanda da bəzi iri dövlətlərin dəstəyi, havadarlığı ilə Azərbaycan ərazilərini qəsb edib. Dağlıq Qarabağ münaqişəsinin gerçək mahiyyəti ermənilərin Azərbaycan torpaqlarına sahiblənməsi və ərazilərini genişləndirmək istəyi ilə bağlıdır. Lakin bir çox hallarda qeyd etdiyimiz kimi, ermənilər Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini gizlədərək onu bölgədə mövcud olan (?) islam-xristian qarşıdurması kimi qələmə verməyə çalışırlar. Halbuki, bu gün erməniləri çıxmaq şərtilə Azərbaycanın bölgədə yaşayan heç bir xristian xalqı ilə problemi yoxdur. Dağlıq Qarabağı və ətraf rayonları işğal etməklə Ermənistan bölgədə hələ ki, söndürülməsi mükün olmayan bir münaqişə ocağı yaradıb.

Tarixçilərin qeyd etdiklərinə görə, Ermənistan Dağlıq Qarabağ münaqişəsinə "islam-xristian qarşıdurması" donu geydirməklə, əslində, böyük xristian dövlətlərinin dəstəyini qazanmaq istəyir. Tarixçilər hesab edirlər ki, onlar bu münaqişəni islam-xristian savaşı kimi qələmə verməyə cəhd etməklə, əslində, xristian və müsəlman dünyasına nifaq toxumu səpməyə cəhd edirlər.

Tarixçilər və politoloqların bildirdiyinə görə, Azərbaycanda tarixən hər hansı bir xalqın, dinin nümayəndəsi ilə qarşıdurma qeydə alınmayıb. Onların sözlərinə görə, Azərbaycan dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquqlarına təminat verən demokratik cəmiyyət nümunəsini təqdim edir.

Ekspertlərin vurğuladığına görə, Ermənistan nəinki Qafqazda, eləcə də bütün dünyada dövlətlər arasında ixtilaflar, münaqişələr yaratmaqda mahirdir. Azərbaycanın multikulturalizm ənənələrinə sadiq olduğunu deyən tarixçilərin qeyd etdiyinə görə, bütün dünya Azərbaycanın bu nümunəsini təqdir edir. Azərbaycanda dini və milli müstəvidə heç bir qarşıdurmanın yaşanmadığını vurğulayan tarixçilərin sözlərinə görə, bu baxımdan Dağlıq Qarabağ münaqişəsi xristian və müsəlman qarşıdurması sayıla bilməz. Etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəs Azərbaycanda normal şəkildə yaşayır. Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin dost və mehriban şəraitdə yaşadığını qeyd edən mütəxəssislərin sözlərinə görə, Azərbaycan ərazilərinin 20 faizi uzun illərdir Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bizim torpaqlarımızı işğal altında saxlayan Ermənistanın bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi qələmə verərək dinlərarası münasibətləri gərginləşdirməyə cəhd etdiyini söyləyən mütəxəssislər hesab edirlər ki, buna baxmayaraq, Ermənistanın bütün bu cəhdləri, həmişə olduğu kimi, boşa çıxır. Çünki dünya bu münaqişənin əsl mahiyyətini bilir.

Qarabağ Azadlıq Təşkilatının rəhbəri Akif Nağı da hesab edir ki, ermənilər Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini saxtalaşdırmağa cəhd göstərir və münaqişənin gerçək səbəblərini ört-basdır etmək məqsədi güdürlər. Onun vurğuladığına görə, böyük güc dövlətləri öz siyasətlərini həyata keçirmək üçüb həmişə ermənilərdən alət kimi istifadə ediblər. "Ermənilər XX əsrin əvvəlində azərbaycanlıları rusların köməyi ilə qətlə yetirdilər, 100 minlərlə insan bu qətllərin qurbanı oldu. Ruslar İran ərazisinə də müdaxilə etdilər, 1917-ci il martın 17-də Urmiya şəhərini ələ keçirdilər, sonra isə erməni quldur dəstələrinin ixtiyarına verdilər. Erməni silahlı dəstələri bir gün ərzində 10 mindən artıq əliyalın dinc əhalini qətlə yetirdilər. Bu, ermənilərin müsəlmanlara qarşı sönmək bilməyən nifrətinin nəticəsi idi. O illərdə azərbaycanlılara qarşı xüsusi qəddarlığı ilə seçilən dəstə başçılarından Hamazasp deyirdi: "Mənə hər yerdə müsəlmanları qırmaq əmri verilib və həmin əmri yerinə yetirirəm. Hər bir müsəlman mənim düşmənimdir, yalnız ona görə ki, o, müsəlmandır".

A.Nağı qeyd edir ki, ermənilərin Dağlıq Qarabağ münaqişəsini islam-xristian qarşıdurması kimi qələmə verməyə cəhd göstərməsi və münaqişə ilə bağlı yanlış təbliğat aparması nəticəsində hətta Papa II İohann Pavel 1992-ci ildə Qarabağda döyüşən erməniləri tərifləyərək din yolunda "mübarizlər" adlandırıb.

Tarixçi Vaqif Abışovun sözlərinə görə, Ermənistan Dağlıq Qarabağ münaqişəsini islam-xristian savaşı kimi qələmə verməklə öz çirkin niyyətlərini gizlətməyə çalışır. Dağlıq Qarabağı münaqişə ocağına çevirən ermənilərin əsl məqsədi Azərbaycan torpaqlarına yiyələnmək və bizim ərazimizdə ikinci erməni dövləti yaratmaqdır. Onların bu cəhdlərinin iflasa uğrayacağını qeyd edən müsahibimiz bildirdi ki, ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən, Dağlıq Qarabağa qarşı iddiaları onların "Böyük Ermənistan" yaratmağa yönəlmiş strateji planlarının tərkib hissəsinə daxildir. Ekspert vurğuladı ki, ermənilərin "Böyük Ermənistan" yaratmaq xülyası artıq dünyaya, eləcə də xristian aləminə məlumdur. Ermənilərin bu çürük planlarını həyata keçirmək üçün Azərbaycana qarşı saysız təxribatlar törətdiklərini deyən alimin sözlərinə görə, onlar bu çirkin niyyətlərini həyata keçirmək üçün hələ keçən əsrdən fəaliyyətə başlayıblar. O vurğuladı ki, SSRİ-də 1985-ci ildə ermənipərəst M.S.Qorbaçovun hakimiyyətə gəlməsi erməni separatçılarının yenidən fəallaşmasına səbəb olub. Onun sözlərinə görə, Ermənistanın bu çirkin niyyətinin gerçəkləşməsi üçün xarici ölkələrdəki güclü erməni diasporu da, onların təsiri altında olan qüvvələr də dəstək göstəriblər. Ermənistanın Dağlıq Qarabağ münaqişəsini islam-xristian qarşıdurması kimi qələmə verməyə cəhd etməsi nəticəsində əvvəllər dünya ictimaiyyətində Dağlıq Qarabağ barədə yanlış rəy yarada bilib. Bu gün isə Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü xarici siyasət nəticəsində ermənilərin bu təxribatının uğursuzluğa düçar olduğunu deyən ekspert hesab edir ki, artıq dünya ictimaiyyəti erməni separatçılarının məqsədini anlayıb.

Tarixdə azərbaycanlılara qarşı dəfələrlə terror, qətliam, soyqırım aktları həyata keçirən ermənilər özlərini yazıq kimi qələmə vermək istəsələr də, artıq bu cəhdləri də özünü doğrultmur. Ermənilərin Azərbaycan torpaqlarını işğal etdiklərini və azərbaycanlıları kütləvi olaraq qətlə yetirdiklərini deyən ekspert bildirdi ki, onlar indiki Ermənistan ərazisindən soydaşlarımızı deportasiya etməklə o torpaqlara yiyələniblər.

1991-ci ilin sonlarında SSRİ-nin dağılması nəticəsində Ermənistanın Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladığını deyən ekspertin sözlərinə görə, Ermənistanın hərbi birləşmələri Azərbaycanın sərhədlərini pozub Qarabağa daxil oldular və Dağlıq Qarabağın erməni separatçılarıterrorçuları ilə birləşərək Azərbaycan torpaqlarını işğal ediblər. Bu gün onların öz işğalçılıq mahiyyətlərini gizlətmək üçün bir sıra oyunlar qurduğunu deyən ekspert bildirdi ki, ermənilər 1992-ci ilin fevral ayında Xocalı şəhərində azərbaycanlı əhaliyə qarşı misli görünməmiş qırğın törədiblər.

O, həmçinin, vurğuladı ki, BMT Təhlükəsizlik Şurası Azərbaycanın Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı, 29 iyul 1993-cü il tarixində Ağdam rayonu və digər işğal olunmuş ərazilərindən işğalçı qüvvələrin tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 853 saylı, bundan başqa, 14 oktyabr 1993-cü il tarixində ATƏM-in Minsk Qrupunun nizama salmaya dair vaxt cədvəlinə uyğun olaraq, dərhal qarşılıqlı və zəruri addımlar atılmasını, o cümlədən, ən son işğal edilmiş ərazilərdən çəkilməyi tələb edən 874 saylı, 11 noyabr 1993-cü il tarixində isə 884 saylı qətnamələri qəbul edib.

Sonuncu qətnamədə Zəngilan rayonu və Horadiz qəsəbəsinin işğalını, mülki əhaliyə qarşı hücumu və Azərbaycan Respublikası ərazilərinin bombalanmasını pisləmiş, Zəngilan rayonu və Horadiz qəsəbəsindən işğalçı qüvvələrin birtərəfli qaydada çıxarılması və Azərbaycan Respublikasının ən son işğal olunmuş digər ərazilərindən işğalçı qüvvələrin çıxarılması tələbi irəli sürülüb. Lakin Ermənistanın məlum qətnamələrə əhəmiyyət vermədiyini xatırladan ekspert hesab edir ki, Dağlıq Qarabağ münaqişəsi islam və xristian qarşıdurması deyil, bu münaqişə ermənilərin Azərbaycan torpaqlarına sahib olmaq üçün həyata keçirdikləri işğalçılıq siyasəti sayəsində yaranıb.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Qeyri-neft sektorunun mühüm bir qolu kimi Azərbaycan nəqliyyat və tranzit yükdaşımalar sahəsinin inkişafına indi xüsusi diqqət yetirir. Bu istiqamətdə yaradılan infrastruktur isə artıq ölkə üzərindən yük və sərnişin daşınmasını əhəmiyyətli dərəcədə artırır və ölkənin valyuta gəlirlərinin çoxalmasına ciddi surətdə təsir göstərir.**

# Soçidə Əliyev - Putin - Ruhani zirvəsi "Şimal-Cənub" dəhlizinin inanılmaz potensiallarını üzə çıxara bilər...

Xüsusən də "Şimal-Cənub" dəhlizinin reallaşması istiqamətində atılan addımlar artıq Azərbaycanı Avrasiya məkanında əsas nəqliyyat qovşaqlarından birinə çevirir.

Bu arada Rusiya və İranın "Şimal-Cənub" dəhlizinin daha tez reallaşması istiqamətində fəaliyyətini genişləndirməsi də müşahidə olunur. Tehran hesab edir ki, qonşu ölkələrlə tranzit yollarının genişləndirilməsi qarşılıqlı iqtisadi və ticarət əlaqələrinin artmasına səbəb olacaq. Elə bu fonda İranda Rəşt-Astara və Ərdəbil-Astara avtomobil yolları yenidən qurulur. "Şimal-Cənub" dəhlizinin dəmir və dəniz yolları ilə yanaşı, avtomobil yolları da mühüm əhəmiyyət kəsb edir. Bu yol, eyni zamanda, İran Astarası ilə Azərbaycan Astarasını da birləşdirir. İran hökuməti 2015-ci ildən Rəşt və Ərdəbil şəhərlərini Astara ilə birləşdirən yolların yenidən qurulmasına başlayıb. Qeyd etmək lazımdır ki, bu yollar İranın cənub bölgəsində yerləşən Gilan və Mazandaran vilayətlərini birləşdirir. Bu vilayətlərin böyük ixrac potensialı var. Hər il İran milyonlarla ton sitrus meyvələrini Azərbaycan üzərindən avtomobillərlə Rusiya, Ukrayna, Belarusa ixrac edir.

Astaranı Ərdəbil və Rəşt şəhərləri ilə birləşdirən yolların yenidən qurularaq genişləndirilməsi yalnız Gilan və Mazandaran vilayətlərindən deyil, İranın cənub vilayətlərindən də ixracı artıracaq. İranın cənub vilayətlərində inşaat və qida məhsulları ixracı potensialı böyükdür. Bütün bu ixrac isə Azərbaycan üzərindən həyata keçiriləcək və ölkəmizin tranzit imkanları və gəlirləri artacaq. Azərbaycan isə bu istiqamətdə Ələt-Astara magistral yolunu müasir standartlara uyğun olaraq yenidən qurub. Rusiyanın energetika naziri Aleksandr Novak belə bir vaxtda bildirib ki, artıq yaxın tezlikdə Rusiya, Azərbaycan və İran arasında dəmir yolu xəttinin birləşdirilməsi layihəsi həyata keçiriləcək. O bu məsələyə dair üç ölkə arasında görüşün gözlənildiyini qeyd edib. Rusiya ilə İran arasında daşınmalar əsas etibarı ilə Azərbaycan üzərindən həyata keçirildiyindən, bu, ölkəmizin əlavə gəlirlər əldə etməsinə səbəb olur. Bütün bunlar fonunda maraqla gözlənilən hadisələrdən biri Azərbaycan, Rusiya, İran liderlərinin gözlənilən görüşüdür. Rusiyanın Şimali Qafqaz işləri üzrə naziri Sergey Çebotaryov bildirib ki, bu ilin avqustunda Rusiya prezidenti Vladimir Putin azərbaycanlı və iranlı həmkarları İlham Əliyevi və Həsən Ruhanini Soçidə qəbul edəcək. Vladimir Putinin İlham Əliyev və Həsən Ruhani ilə son görüşü 2018-ci ilin avqustunda "Xəzəryanı beşlik" sammiti çərçivəsində baş tutub. İndi isə görünür ki, "Şimal-Cənub" layihəsinin əsas ölkələrinin başçıları üçün yenidən bir araya gəlmək zərurəti yaranıb. Artıq adıçəkilən beynəlxalq nəqliyyat dəhlizinin gələcək sammit zamanı müzakirələrin əsasını təşkil edəcəyi aydındır. Yayılan məlumatlardan belə bəlli olur ki, tərəflər "Şimal-Cənub" layihəsinə yeni ölkələri, xüsusən də Hindistanı qoşmağa hazırlaşır. Eyni zamanda, "Şimal-Cənub" layihəsi fonunda "Transxəzər" yükdaşımalar marşrutunun inkişafı da əsas diqqət mərkəzində yer alır. Xatırladaq ki, Rusiyada bu nəqliyyat dəhlizini bərpa etmək ideyası 1993-cü ildə, demək olar ki, Sovet İttifaqının dağılması ilə bir vaxtda ortaya çıxdı. Lakin dəhliz üzrə ilk hüquqi sənədlər yalnız 2000-ci il sentyabrın 12-də Rusiya, İran və Hindistanın müvafiq razılaşmanı imzalaması ilə yarandı. Tərəflər sənədi 2002-ci ildə ratifikasiya edib. 2005-ci ildə isə layihəyə bu sahənin, demək olar ki, açar oyunçusu olan Bakı qoşuldu, Azərbaycan sənədi imzaladı və ratifikasiya etdi. Bu layihənin perspektivlərini çox yaxşı görən Azərbaycan lideri İlham Əliyevin səyləri nəticəsində hazırda dəhlizin şərq qolu yox, qərb qolu, yəni "Transxəzər" yolu əsas komponent kimi nəzərdən keçirilir.




"Transxəzər" marşrutunda Rusiyanın Həştərxan, Olya və Mahaçqala dəniz limanları və Azərbaycanın Bakı limanından istifadə etməklə və ya dəmir yolu vasitəsilə "Samur" (Rusiya) - "Yalama" (Azərbaycan) sərhəd məntəqələrindən keçməklə "Astara" sərhəd məntəqəsinə, oradan isə İranın dəmir yolu şəbəkəsinə çıxış nəzərdə tutulur. Burada xüsusilə vacib məsələ odur ki, Transavrasiya marşrutlarından fərqli olaraq, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi həddindən artıq yatırım tələb etmir, çünki bu dəhliz faktiki olaraq hazırda bir neçə fərqli nəqliyyat fraqmentlərindən ibarət kompleks şəklində mövcuddur. Dəhlizin texniki keçiricilik qabiliyyəti onun "dar yerlərində" ildə 5 milyon tona, yol infrastrukturu baxımından inkişaf etmiş sahələrində isə 10 milyonlarla tona çatır.

"Şimal-Cənub" dəhlizi üçün hazırda konteyner daşımalarının prioritet olduğunu nəzərə alsaq, dəhlizin nəzərdə tutulan rejimdə fəaliyyətinin Hindistan və İran üçün hazırda əsas hesab edilən Süveyş kanalı marşrutundan iki və daha çox dəfə az istifadə etməsinə səbəb olacağını demək olar.

Daşımaların qiymətində də əhəmiyyətli dərəcədə azalmalar olacaq. Bu isə o deməkdir ki, malların Hindistanın Mumbay şəhərindən İranın Bəndər-Abbas limanı vasitəsilə Bakıya, oradan isə Həştərxan, Moskva və Sankt-Peterburqdan keçməklə Avropa ölkələrinə çatdırılması mümkün olacaq. Elə bu da yükdaşımaların Azərbaycana daah çox gəlir gətirməsinə gətirib çıxaracaq.

***Nahid SALAYEV***

# BMT Səudiyyə Ərəbistanına ağır cəza kəsdi - Konsulluğun olduğu küçə Kaşıkçının adını daşıyacaq




**BMT-nin xüsusi məruzəçisi Aqnes Kallamard Səudiyyə Ərəbistanının İstanbul Baş konsulluğunda öldürülən jurnalist Camal Kaşıkçı cinayəti ilə bağlı hesabatını açıqlayıb.**

Baki-xeber.com xəbər verir ki, hesabatda Kaşıkçının öldürülməsinə görə Səudiyyə Ərəbistanı dövlətinin məsuliyyət daşıdığı və şahzadə Məhəmməd bin Salmanın qətldə bir başa əli olduğu deyilir.

Hesabatda qeyd edilir ki, Səudiyyə Ərəbistanı diplomatik imtiyazlardan sui-istifadə etdiyi üçün Türkiyə hökumətindən üzr istəməlidir. ABŞ isə Kaşıkçı cinayətinin araşdırılması üçün FBİ çərçivəsində istintaqa başlamalıdır. BMT Baş katibi (Antonio Quterres) də Kaşıkçının öldürülməsi ilə əlaqədar cinayət işi başlatmalıdır.

Kallamardın hesabatında Səudiyyə Ərəbistanı şahzadəsinin də aralarında olduğu yüksək rütbəli şəxslərin istintaqa cəlb edilməsi üçün etibarlı sübutların mövcud olduğu vurğulanır.

**Xüsusi məruzəçiyə görə, Kaşıkçının öldürülməsinə görə sanksiyalar şahzadə və onun xaricdəki şəxsi aktivlərini də əhatə etməlidir. Bundan başqa, Səudiyyə hökuməti qətlə görə məsuliyyəti üzərinə götürməlidir, eyni zamanda Kaşıkçı ailəsinə təzminat ödəməlidir.**

Hesabatda Türkiyə ilə bağlı iki çağırış da yer alır. Birincisi, Türkiyə BMT Baş katibindən yekun istintaqın başladılması üçün rəsmi müraciət etməyə çağırılır. İkincisi, Türkiyəyə Səudiyyə Ərəbistanının İstanbul Baş konsulluğu qarşısında söz azadlığını təcəssüm etdirən heykəl qoyması təklif edilir, buna alternativ kimi isə konsulluğun yerləşdiyi küçəyə Camal Kaşıkçının adının veriləcəyi qeyd edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Vaşinqton görüşündən sonra Azərbaycanın Qarabağ diplomatiyasına ABŞ-ın dəstəyi daha da artacaq...

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla onun erməni həmkarı Zöhrab Mnatsakanyan arasında Vaşinqtonda baş tutacaq görüş ərəfəsində okeanın o tayından maraqlı bir açıqlama gəlib. Belə ki, iyunun 20-də Vaşinqtonda baş tutacaq Qarabağ danışıqlarına ABŞ pezidentinin milli təhlükəsizlik müşaviri Con Bolton vasitəçilik edəcək. Xatırladaq ki, nazirlər arasında növbəti görüşdə ATƏT-in Minsk Qrupu həmsədrləri də iştirak edəcək. Daha əvvəl isə eyni formatda görüş bu ilin yanvar ayında Parisdə və aprel ayında Moskvada baş tutub.**

Elə bundan sonra iki ölkə xarici işlər nazirlərinin üçüncü görüşünün ABŞ-da keçirilməsi üçün razılaşma əldə olunmuşdu. Məlumatlara görə, əvvəlki görüşlərdən fərqli olaraq, bu dəfə keçiriləcək görüşün mühüm bir xüsusiyyəti var və bu xüsusiyyət siyasi mesaj kimi qəbul edilir. Belə ki, Rusiyada baş tutmuş Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü Rusiya xarici işlər naziri Sergey Lavrovun himayəsi altında keçirildi. ABŞ-dakı diplomatik mənbələrin verdiyi məlumatlara görə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşündə Birləşmiş Ştatların dövlət katibi Mayk Pompeo iştirak etməyəcək. ABŞ tərəfindən bu görüşün məhz Bolton tərəfindən koordinasiya edilməsi isə təsadüfi sayılmır. Belə ki, ötən il regionda səfərdə olan Bolton Qarabağ münaqişəsinə kifayət qədər bələd şəxs sayılır. Onun münaqişəyə dair mövqeyi də kifayət qədər aydındır. Belə ki, ötən il İrəvanda olarkən Bolton Ermənistan hakimiyyətini Azərbaycan və Türkiyə ilə anlaşmaq, regiondakı inteqrasiya proseslərinə və meqalayihələrə cəlb olunmaq üçün Qarabağ məsələsinin həlli yönündə real addımlar atmağa çağırmışdı. Xatırladaq ki, bu ilin yanvarında prezident Donald Tramp da baş nazir seçilməsi münasibətilə Nikol Paşinyana göndərdiyi təbrik məktubunda eyni mesajı təkrarladı, bildirdi ik, Ermənistan öz qonşuları ilə əlaqələri qaydaya salmadan ABŞ-la əlaqələr inkişaf etməyəcək.

Yayılan məlumatlardan isə belə bəlli olur ki, ABŞ münaqişənin həllində "Bolton planı"nın işə düşməsində maraqlıdır. "Bolton planı" sülhə əvəz olaraq ərazilər düsturunu nəzərdə tutur. Erməni mediası özü də açıq etiraf edir ki, "Bolton planı"nda Dağlıq Qarabağın müstəqil statusu nəzərdə tutulmur, çünki plan onun Azərbaycanın tərkibində olmasına hesablanıb, sülhməramlılar yoxdur və yalnız sülh vədi var. Bütün bunlar fonunda Boltonun vasitəçiliyi ilə nazirlərin ABŞ görüşündə hansı nəticələrin əldə olunacağı xüsusi maraq doğurur. Qeyd edək ki, bu, ABŞ-ın birbaşa vasitəçiliyi ilə uzun müddətdən bəri təşkil edilən ilk Qarabağ müzakirələridir. Gözlənir ki, nazirlərin görüşünün ardınca Azərbaycan və Ermənistan rəhbərləri də Vaşinqtonda danışıqlar aparacaq. Nazirlərin görüşü ilə bağlı ABŞ prezidentinin milli təhlükəsizlik müşavri özü əlavə edib ki, Vaşinqton regionda sülhün əldə olunmasına dəstək verməyə hazırdır. Onu da qeyd edək ki, Bolton Tramp administrasiyasında "qırğılardan" hesab edilir və administrasiyanın xarici siyasətində əsas söz sahiblərindən biridir. Hazırda ABŞ-ın Qarabağa dair siyasətini də o koordinasiya edir. Erməni mediası yazır ki, Boltonun Qarabağ fəallığı İrəvan üçün müsbət heç nə vəd etmir. Amma Ermənistandan fərqli olaraq, Azərbaycanda ABŞ, o cümlədən də Boltonun Qarabağ münaqişəsi ətrafında fəallığına müsbət yanaşılır.

Politoloq Zaur Məmmədov məsələyə o fonda yanaşır ki, Azərbaycan və ABŞ arasında münasibətlər günü-gündən inkişaf edir. Bu, həm də Boltonun bölgəyə səfərindən sonra isinən ikitərəfli münasibətlərlə bağlıdır. Bu mənada o vurğulayıb ki, Vaşinqtonda baş tutacaq görüş münaqişənin həllində böyük rol oynayacaq: "Bolton artıq sosial şəbəkədə də Azərbaycan və Ermənistan XİN başçılarını səbrsizliklə gözlədiyini yazıb. ABŞ "Əsrin müqaviləsi" imzalanandan sonra regionda daha çox iqtisadi sahələrdə aktiv idi. İndi isə Rusiya ilə davam edən geosiyasi qarşıdurma nəticəsində öz strategiyasının mühüm xətti olan Rusiyanın cənubunda da fəallaşmaqdadır. Baltikyanı ölkələr və Şərqi Avropadan sonra Qara dəniz vasitəsilə Cənubi Qafqaza istiqamətlənən ABŞ hər iki münaqişə tərəfi ilə ciddi söhbətlər edəcək. Azərbaycan-ABŞ münasibətləri bu il ərzində yüksələn xətt üzrə inkişaf etməkdədir. Regionda son hadisələr Azərbaycanı Vaşinqtona daha da yaxınlaşmağa vadar edir. Buna görə də hesab edirəm ki, rəsmi Vaşinqton münaqişənin həlli üçün lazımi addımları atacaq". Politoloq Ermənistanın ABŞ-la olan münasibətindən də danışıb: "Ermənistan-ABŞ münasibətlərində isə ciddi problemlər var. Guya qərbçi olan Paşinyan da bu münasibətləri düzəltmək iqtidarında deyil. Vaşinqton Rusiya ilə sıx əlaqədə olan heç bir ölkəyə maliyyə yardımı etmək istəmir. Təsadüfi deyil ki, düşmən ölkədəki seçkilərdən sonra da İrəvandan bir neçə dəfə yüksək heyətin Ağ Evə və Dövlət Departamentinə səfərləri onların qapı arxasında qalmaları ilə nəticələndi. Ermənilərə dəstək, ən yaxşı halda, Konqresdə davam edəcək.

İş orasındadır ki, indi Vaşinqtonda oturan yəhudi lobbisinin əsas məqsədi İranı zəiflətməkdir. Ermənistan isə blokada məsələsini bəhanə gətirərək, İranla münasibətlərində əvvəlki kimi çirkli pulların yuyulması, qanunsuz narkotik ticarəti, müəyyən silahların daşınması və sair davam etdirir. Səhv etmirəmsə, 2003-cü ildə "Vikiliks" də bu haqda məlumat yaymışdı. Ancaq ABŞ-dakı erməni lobbisinin səyi nəticəsində bütün bu illər ərzində ABŞ İrəvanı İranla münasibətlərinə görə heç vaxt sıxışdırmır. Lakin artıq vəziyyət dəyişir". Bütün bu şərtlərlə əlaqədar hesab edilir ki, ABŞ-ın Ermənistana Qarabağ məsələsi ilə bağlı təzyiqlərini artırması tamamilə gözləniləndir. Bunu şərtləndirən mühüm amillərdən biri də Azərbaycanın ABŞ üçün artan əhəmiyyətidir. Faktdır ki, Amerika üçün Cənubi Qafqazda regional əhəmiyyətli geosiyasi-hərbi, iqtisadi, sosial, nəqliyyat-logistik, enerji, təhlükəsizlik kimi məsələləri Azərbaycanla əməkdaşlıq əsasında qurmaq ciddi əhəmiyyət kəsb edir. Eyni zamanda, belə vəziyyətdə ABŞ Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması faktı arasında sıx bağlılığın olduğunu qəbul edir. Bu, geosiyasi kontekstdə ciddi önəm kəsb edir. Çünki başa düşülür ki, münaqişəni ədalətli şəkildə həll etməkdən başqa yol yoxdur. Digər tərəfdən, ABŞ Avropanın enerji təhlükəsizliyinin təmini ilə regional geosiyasi təhlükəsizlik sahəsində uğurlu modelin qurulması arasında uyğunluğun saxlanmasında Azərbaycanın həlledici rolunu anlamağa başlayıb. Bunun konkret əlamətlərindən biri Vaşinqtonun tədricən Azərbaycanın real geosiyasi statusunu qəbul etməyə doğru getdiyini nümayiş etdirməsidir. Artıq faktdır ki, ABŞ da daxil olmaqla, Qərbin siyasi liderləri Avropanın enerji təhlükəsizliyində Azərbaycanın həlledici rolunu açıq etiraf edib. Bu isə Azərbaycana yanaşma tərzini dəyişməyə vadar edir. Eyni zamanda reallıq göstərir ki, Vaşinqton Azərbaycanla ikitərəfli əlaqələrə artıq daha böyük ölçüdə qlobal geosiyasi dinamika kontekstində baxır. Bu baxımdan Azərbaycanın dünya siyasətinə, təhlükəsizlik məsələlərinə, əməkdaşlıq modellərinin inkişafına verdiyi töhfələrlə regionun digər iki ölkəsinin, yəni Ermənistan və Gürcüstanın cəm halında verdiyi töhfələr müqayisə belə oluna bilməz. Azərbaycan onların cəmindən qat-qat üstün səmərə verir. Bu səbəbdən də Azərbaycanla regionun aparıcı ölkəsi kimi münasibət qurmaq bütövlükdə ABŞ üçün sərfəlidir. Elə bu üzdən də Vaşinqtonun Cənubi Qafqaz siyasətində ciddi dəyişikliklər qaçılmaz sayılır. Bu dəyişikliklər isə həm də özündə Qarabağ münaqişəsinin ədalətli həllini ehtiva edir. Hazırda ABŞ nəzərə alır ki, Cənubi Qafqaz Çin, Rusiya, İran kimi böyük dövlətlərin diqqət mərkəzində olan bir regiondur. Bu baxımdan ABŞ-ın burada mövqelərini möhkəmləndirməsi və Dağlıq Qarabağ münaqişəsini həll etməsi Amerikanın nüfuzunu və bölgədə sabitliyi artıra bilər. Bundan başqa, bu, ABŞ-a şərait yaradar ki, həm geosiyasi planlarını, həm də enerji layihələrini uğurla həyata keçirsin. ABŞ başa düşür ki, Azərbaycanla yaxınlaşmadan Cənubi Qafqaz regionunda mövqeyini möhkəmlədə bilməz. Azərbaycana yaxınlaşmağın yolu da Qarabağ münaqişəsinin ədalətli həllindən keçir. Məsələnin bu tərəfinə nəzər salan rusiyalı ekspert Aleksey Fenenko isə bildirir ki, əslində, Ermənistanda yaranan vəziyyət fonunda böyük dövlətlər Qarabağ münaqişəsinin həllini tezləşdirə bilər: "Məlumdur ki, Paşinyan "Qarabağ klanı"nın onunla hesablaşmadığını düşünür və ona təzyiq edir, eyni zamanda ikincilər də baş nazirdən narazıdır. Düzdür, hazırda Paşinyan "Qarabağ klanı"ından güclüdür. Mən xalq dəstəyindən danışıram, hərçənd, son zamanlar bu dəstək zəifləyir. Ermənilər ötən il baş verən inqilabı qəbul etdilər. Paşinyan bu gücdən istifadə edərək, "Qarabağ klanı"na təzyiq edir.

O istənilən vaxt deyə bilər: "Özünüzü pis aparacaqsanız, Qarabağa maliyyə dəstəyini kəsəcəyik, onda Azərbaycanla təkbətək qalın". Bunun qarşısında "Qarabağ klanı" ona təsir edə bilmir. Bununla yanaşı, Paşinyanda Qərbin onu qəbul etdiyi haqda təsəvvür var. "Qarabağ klanı"nda isə belə imkan yoxdur. Paşinyan bundan sonra yalnız ona verilən missiyaya uyğun siyasət həyata keçirə bilər. Bu, Rusiyadan və Avrasiya strukturlarından uzaqlaşmaqdır. Əks halda Qərb, o cümlədən də ABŞ Paşinyana təzyiqləri artıracaq. Bu isə mütləq mənada Qarabağ məsələsində də öz əksini tapacaq. Yaxın tezlikdə münaqişə ilə bağlı müəyyən yeniliklərin olması tamamilə gözləniləndir".

Beləliklə, qeyd edilənlərdən bəlli olur ki, Azərbaycan və Ermənistan rəsmilərinin ABŞ-da baş tutacaq təmaslarından sonra Qarabağ münaqişəsinin həlli istiqamətində müəyyən dəyişikliklər qeydə alına bilər.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**2019-cu ilin əvvəlindən əməkhaqları, pensiyalar, təqaüdlər artırılır, nəticədə əhalinin gəlirləri yüksəlir. İyunun 18-də Prezidentin imzaladığı sərəncamlarla da müəllimlərin, hərbçilərin, dövlət büdcəsindən maliyyələşən bəzi təşkilatlarda çalışanların əməkhaqları artırılıb. Bu məqsədlə büdcədən illik əlavə 1 milyard manat xərclənəcək.**

# Minimum əməkhaqqı artımının inflyasiya yaratmasından ehtiyat edənlərə - yanvardakı islahatlarla dövriyyəyə əlavə 1,5 milyard manat daxil olmuşdu...





***Rüfət Quliyev:** "İndiki halda, əhalinin gəlirlərinin artması inflyasiya təhlükəsi yarada bilməz, çünki..."*

***Tahir Mirkişili:** "Ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması artımın real dəyərinin yüksək olmasına imkan yaradacaq"*

Bəziləri elə hesab edirlər ki, əhalinin gəlirlərinin artması inflyasiyanı yüksəldəcək və qiymət artımı yaşanacaq. Ancaq nəzərə almaq lazımdır ki, ilin əvvəlindən etibarən sosial islahatlar həyata keçirilir. Xatırladaq ki, dövlət başçısının cari il fevralın 8-də imzaladığı sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırıldı, bu artım 600 minədək insanı əhatə etdi.

Məlumat üçün bildirək ki, 2019-cu ilin əvvəlində Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu və bu məqsədlər üçün 1,5 milyard manat ayrıldı.

Bəllidir ki, iyunun 18-də imzalanan sərəncamla minimum əməkhaqqından əlavə, dövlət qulluqçularının aylıq vəzifə maaşları 50% , hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqqı 40%, dövlət ümumtəhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqların diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid əməkhaqqının orta hesabla 20%, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan şəxslərin də aylıq maaşının 40% artırılması nəzərdə tutulub.

Əhalinin sosial təminatının gücləndirilməsi məqsədilə imzalanan sərəncamlar ilk növbədə 950 minə yaxın şəxsin yaşayışının yaxşılaşmasına səbəb olacaq.

Ekspertlər bildirirlər ki, minimum əməkhaqqının və bəzi sahələrdə əməkhaqqının yüksəlməsi qiymət artımına təsir etməyəcək. Qiymət artımının qarşısını almaq üçün önləyici tədbir görülüb. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət tərəfindən müəyyən məbləğdə vəsait ayrılması gözlənir. Belə olan halda, qiymət artımı baş verməyəcək.

**Millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır:** "Maaşların artımı təbii bir prosesdir, vaxtı çatmış bir prosesdir. Sual verirlər ki, əhalinin gəlirlərinin artması inflyasiyaya təsir edəcəkmi?

Bir çoxları hesab edir ki, əhalinin gəlirlərinin artması inflyasiyanı yüksəldəcək. İndiki halda, əhalinin gəlirlərinin artması inflyasiya təhlükəsi yarada bilməz. Bəzi iqtisadçılar məlumat yayırlar ki, əhalinin gəlirləri artırsa, inflyasiya yüksələ bilər, qiymət artımı baş verər. İqtisadçılar maaş artımını qorxunc formada ictimaiyyətə təqdim etməsinlər.

O zaman maraqlıdır, əhalinin gəlirləri artırsa, bəs nə üçün inflyasiya 2,4%-dir və getdikcə aşağı düşür?! Biz iqtisadiyyatdan qazandığımız pulu xərcləyirik. Əgər qazanılmamış pul xərcləsəydik, iqtisadi artımdan çox gəlirləri artırsaydıq, inflyasiya yüksələ bilərdi".

Millət vəkili onu da vurğuladı ki, minimum əməkhaqqının və bəzi sahələrdə əməkhaqqının 20-40 faiz artması insanların sosial rifahının yüksəlməsinə səbəb olacaq.

**Millət vəkili Tahir Mirkişili bildirdi ki, 2018-ci ildə qəbul olunmuş 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına cənab İlham Əliyevin sərəncamları ilə geniş sosial paket elan edildi:** "Bu sosial paket 3 milyondan çox insanı əhatə edərək minimum əməkhaqlarının, pensiya təminatlarının, təqaüdlərin, sosial müavinətlərin və s. artmasına səbəb oldu. Məlumdur ki, 2019-cu ilin sürətli iqtisadi artım ili olacağı da əvvəlcədən planlaşdırılıb və ilin 1-ci rübünün iqtisadi yekunları bunu bir daha sübut etdi. Belə bir şəraitdə sosial addımların atılmasının iqtisadi əsasları da təmin edilməkdədir. Dövlət başçısının sərəncamları ilə ilin əvvəlindən elan edilən sosial paketin yeni mərhələsi başladıldı.

Yeni sərəncamlar orta hesabla maaşların 40-50% artırılmasını nəzərdə tutur. Minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır, xatırladım ki, minimum əməkhaqqının yaşayış minimumundan çox olması yoxsulluq səviyyəsinin azaldılmasına da ciddi təsir edəcək.

**Onu da bildirim ki, Prezident İlham Əliyevin sərəncamı ilə bir sıra sahələrdə əməkhaqqı 20-40 faiz artdı. Əməkhaqlarının 20-40 faiz artırılması insanların maddi rifah halına mühüm dəstək olacaq. Ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması artımın real dəyərinin yüksək olmasına imkan yaradacaq. Əməkhaqlarının artımı həm də iqtisadi aktivliyi artıracaq".**

***Günel CƏLİLOVA***

---

**Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncamına əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək.**

# Son 7 ayda 2 dəfə minimum əməkhaqqı artımı, 950 min işçiyə birbaşa təsir - daha nə demək...




***Rəsul Cahangirli:** "Bu, sosial-iqtisadi baxımdan çox böyük əhəmiyyət kəsb edir"*

Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

Onu da qeyd edək ki, son 7 ayda ölkədə minimum əməkhaqqı 2 dəfə artırılıb. Belə ki, bu il Azərbaycanda minimum əməkhaqqının məbləğinin artımını ehtiva edən sərəncama əsasən, 2019-cu il martın 1-dən 50 manat (38,4%) artırılaraq 130 manatdan 180 manata çatdırılıb. Sonuncu 40 faizlik artım isə bu il minimum əməkhaqqında 2 dəfəyə yaxın artımın edildiyini ortaya qoyur ki, bu da indiyə qədər bir ilkdir. Bir ildə minimum əməkhaqqının iki dəfə artımı əhalinin sosial vəziyyətinə müsbət təsir göstərəcək.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər? Ötən 7 ayda minimum əməkhaqqının 2 dəfə artması sosial baxımdan nə deməkdir? Bu, insanların aylıq gəlirlərinə necə təsir göstərəcək?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, 7 ay ərzində minimum əməkhaqqının 2 dəfə artması sosial-iqtisadi baxımdan çox böyük əhəmiyyət kəsb edir:** "Bunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, burada 950 minə yaxın ölkə vətəndaşının əməkhaqqının artmasından söhbət gedir. Nəticədə artımlar yüz minlərlə vətəndaşın yaşayışına müsbət təsir göstərəcək. Artımlar, paralel olaraq, ölkə iqtisadiyyatının dinamikliyinə müsbət təsir edəcək. Çünki bunun nəticəsində iqtisadi sferaya böyük həcmdə vəsait daxil olacaq. Bu da digər sahələrdə iqtisadi fəallığı daha da artıracaq. Necə? Bunun sayəsində bank, xidmət sektorunda, istehsal və digər sahələrdə iqtisadi fəallıq artacaq. Bu da sözügedən sahələrdə inkişafa gətirib çıxaracaq. Ən başlıcası, artımlar sayəsində vətəndaşların alıcılıq qabiliyyəti yüksələcək. İstehsal, tələbat da paralel olaraq artacaq ki, bütün bunlar bir-birilə sıx bağlıdır. Nəticədə ölkədə kiçik və orta sahibkarlıq inkişaf edəcək. Yəni bununla bağlı verilən qərarın çoxşaxəli sosial-iqtisadi əhəmiyyəti var.

*"Artımlar sayəsində vətəndaşların alıcılıq qabiliyyəti yüksələcək"*

Görünən odur ki, dövlət büdcəsinin gəlirləri artır və bunun sayəsində vətəndaşların əməkhaqqı, sosial müavinətlər, pensiyalar yüksəlir. Bütün bu sərəncamların xərcləri dövlət büdcəsi hesabına həyata keçirilir. Deməli, dövlət büdcəsinin gəlir mənbələri proqnozlaşdırılan istiqamət üzrə inkişaf edir.

**Dövlət büdcəsi sahibkarlıq, istehsal, vergi və bu kimi sahələrin dinamik inkişafı hesabına özünü qoruyur və get-gedə daha da inkişaf edir. Nəticədə əməkhaqqı və pensiyaları artırmaq üçün imkanlar genişlənir".**

***Vidadi ORDAHALLI***

**Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncamı ölkədə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin elə ilk aylarından atılan inqilabi addımların davamıdır. Sərəncama əsasən, Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq.**

# Mühüm olan daha bir göstərici üzrə Azərbaycan MDB-də ikinci yerə yüksəldi

## *Əli Əlirzayev: "Hesab edirəm ki, bu çox yaxşı göstəricidir"*



*"Fikrimcə, MDB ölkələri arasında bu cür yerə sahib olmaq böyük uğurdur"*

Yeni "Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir.

Belə ki, bundan əvvəl dövlət başçısının cari il fevralın 8-də imzaladığı sərəncamla da minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmış, bu artım 600 minədək insanı əhatə etmişdi. Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramı təkcə bu il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması kimi əhalinin rifahına ciddi dəstək olan mühüm sosial uğura nail olmağa imkan verib.

Sərəncamdan sonra Azərbaycan MDB məkanında minimum əməkhaqqının səviyyəsinə görə ikinci yerə yüksələcək. Yeni artımdan sonra Azərbaycan MDB ölkələri arasında əhalinin alıcılıq qabiliyyətinə görə (PPP) 2-ci yerdə qərarlaşacaq. Bu da çox mühüm göstəricidir.

Maraqlıdır, bəs ekspertlər bunu necə şərh edirlər?

**Məsələyə münasibət bildirən iqtisadçı-alim Əli Əlirzayevin sözlərinə görə, sentyabrın 1-dən etibarən qüvvəyə minəcək artımdan sonra Azərbaycan MDB məkanında maaş artımına görə 2-ci yeri tutacaq:** "Hesab edirəm ki, bu çox yaxşı göstəricidir. Əməkhaqlarının əhəmiyyətli artımı sayəsində əhalinin alıcılıq qabiliyyətinin artması ilə yanaşı, iqtisadi aktivlik də artacaq. Minimum aylıq əməkhaqqının artması orta aylıq maaşın artmasına təsir edəcək. Bu da ölkə iqtisadiyyatında inkişafı, əhalinin rifahını təmin edir. Minimum aylıq əməkhaqqı qalxanda digər əməkhaqları, minimum pensiyalar və digər pensiya növləri də qalxacaq. Fikrimcə, MDB ölkələri arasında bu cür yerə sahib olmaq böyük uğurdur. Əməkhaqlarının artırılması, istənilən halda, ölkə üçün şərəf gətirir.

Bu o deməkdir ki, insanların həyat səviyyəsi yüksəlir, sosial məsələlər qabağa çəkilir. İnsanlarda stimul yaranır, alıcılıq qabiliyyəti artır. Ona görə də bütün bu artımları yüksək qiymətləndirirəm.

**Hesab edirəm ki, bütün bunların müsbət iqtisadi effekti olacaq. Əhalinin rifahı halı daha da yüksələcək. Ölkə Prezidenti tərəfindən bu yöndə aparılan uğurlu sosial siyasət öz bəhrəsini verir".**

*Vidadi ORDAHALLI*

**Məlumdur ki, Prezident İlham Əliyev "Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması haqqında" Sərəncam imzalayıb. Sərəncam əsasən, dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin aylıq vəzifə maaşları 2019-cu il sentyabrın 1-dən orta hesabla 20 faiz artırılır.**

# Müəllimlərin əməkhaqqının 20 faiz artımı təhsilin keyfiyyətinə birbaşa təsir göstərəcək



***Asim Mollazadə:** "Müəllimlərin əməkhaqqının artması Azərbaycanda təhsil sisteminin inkişafına xidmət edəcək"*

***Kamran Əsədov:** "Azərbaycanda təhsilə qayğı ildən-ilə artmaqdadır"*

Qeyd edək ki, dövlət başçısının yeni sərəncamı 160 minə yaxın müəllimə şamil olunacaq və onların orta aylıq əməkhaqqının 605 manata çatmasına imkan verir.

Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən əlavə olaraq illik 240 milyon manat, cari il (sentyabr-dekabr ayları) üzrə isə 73 milyon manat vəsait ayrılacaq.

Təhsil işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə onların əməkhaqqının 20 faiz artması tək pedaqoqlar tərəfindən deyil, bütün ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Bildirilir ki, müəllimlərin əməkhaqqının artırılması təhsilin keyfiyyətinin artmasına səbəb olacaq.

**Milli Məclisin deputatı Asim Mollazadə bildirdi ki, Prezidentin əməkhaqqının artırılması ilə bağlı addımları çox mühümdür:** "Bu, Azərbaycan xalqının rifahının artırılmasına hesablanmış məsələlərdir. Xüsusi olaraq peşəkar müəllimlərin bu istiqamətdə gəlirlərini yeni səviyyəyə çatdırmaqdır. Düşünürəm ki, bu artım Azərbaycanda təhsil sisteminin inkişafına xidmət edəcək. Diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əməkhaqqının artırılması valideynləri də seçim etməyə vadar edəcək. Beləliklə, məktəblərdə səviyyələri yüksək olan müəllimlərin çalışması Azərbaycanda təhsil sistemini sürətlə dəyişdirə bilər. Mənə elə gəlir ki, bu, özlüyündə valideyn-məktəb vəhdətini gücləndirəcək.

Valideynlər peşəkar müəllimlərin çalışdığı məktəbləri seçərək uşaqlarının gələcəyinə müəyyən töhfə verəcəklər. Hər valideyn övladının daha savadlı müəllimdən təhsil almasına çalışacaq".

**Təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir:** "Azərbaycanda təhsilə qayğı ildən-ilə artmaqdadır. Bunu təhsilin bütün sferalarında aparılan davamlı islahatlar bir daha təsdiq edir. 2014-2018-ci illərdə Təhsil Nazirliyinin diaqnostik qiymətləndirməsindən keçən müəllimlərin orta aylıq əməkhaqqı 465 manatdır. 2014-cü ildən bu günə kimi 142 min müəllim diaqnostik qiymətləndirmədən keçib. Amma maaşın 20 faiz artımı diaqnostik qiymətləndirmədən keçməyənlərə də şamil olunur. Əməkhaqlarının artımı diaqnostik qiymətləndirmədən keçən bütün müəllimlərə şamil ediləcək. Amma artım zamanı qiymətləndirmədən keçən müəllimlər arasında fərq qoyulmayacaq, artım bütün müəllimlərin əməkhaqlarına eyni səviyyədə təsir göstərəcək.

Hazırkı dövrdə diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin dərs bölgüsü zamanı nəzərə alınır. Bu o deməkdir ki, diaqnostik qiymətləndirmənin nəticələri yüksək olan müəllim daha çox dərs saatı alacaq və bu da onun yüksək əməkhaqqı almasına imkan verəcək.

Bu artımdan sonra təkcə Bakı şəhərində 8965 nəfər müəllimin əməkhaqqı 500-1000 manat, 476 nəfər müəllimin əməkhaqqı isə 1000 manatdan yuxarı olub. Aparılan islahat nəticəsində həmin müəllimlərin orta aylıq əməkhaqqı 465 manat təşkil etməklə, ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşıb. Yeni artımdan sonra müəllimlərin əməkhaqqı orta hesabla 77-99 manat artıb. İndi pedaqoji stajı 3 ilə qədər olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 462 manat, pedaqoji stajı 18 ildən çox olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 594 manat atlıq əməkhaqqı alacaq.

Onu da deyim ki, müəllimlərin əməkhaqqına təsir edən amillərdən biri də məhz elmi dərəcəsi olan və ixtisası üzrə fənn tədris edənlər, Azərbaycan Respublikasının fəxri adlarına layiq görülmüş şəxslər, ümumtəhsil müəssisələrində istifadə edilən dərslik və ya müəllim üçün metodik vəsaitlərin müəllifləri ilə bağlıdır. Qeyd etdiklərimdən biri olduğu halda maaşa 45 manat əlavə olunur.

Fəlsəfə doktoru olduğunuz halda 60, elmlər doktoru olanda isə maaşa 100 manat əlavə olunur. "Əməkdar" fəxri adında 100 manat, "Xalq" fəxri adında isə maaşa 150 manat əlavə nəzərdə tutulur".

*Günel CƏLİLOVA*

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BAXIŞOV İDRİS OSMAN oğlu**



25 dekabr 1973-cü ildə Azərbaycan Respublikasının Quba rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Quba rayonunun Qənidərə kəndində yaşamışdır. Quba RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Baxışov İdris Osman oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 1 aprel 1993-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxışov İdris Osman oğlu 1 aprel 1993-cü il tarixində Kəlbəcər rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Baxışov İdris Osman oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAXIŞOV VAHİD TALIB oğlu**



25 aprel 1942-ci ildə Azərbaycan Respublikası Cəbrayıl rayonunun Qışlaq kəndində doğulmuşdur. İtkin düşənə qədər Füzuli rayonunun Horadiz qəsəbəsində (indi şəhər) yaşamışdır. Mülki şəxs. Baxışov Vahid Talıb oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 23 oktyabr 1993-cü ildə Füzuli rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxışov Vahid Talıb oğlu 23 oktyabr 1993-cü il tarixində erməni silahlı birləşmələri Füzuli rayonunu işğal edən zaman rayonun Horadiz qəsəbəsi ərazisində pambıqtəmizləmə zavodu adlanan yerdə naməlum şəraitdə itkin düşmüşdür.

Baxışov Vahid Talıb oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAXŞƏLİYEV FAMİL AĞAMOĞLAN oğlu**



1 fevral 1974-cü ildə Azərbaycan Respublikasının Biləsuvar rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Biləsuvar rayon mərkəzində yaşamışdır. Biləsuvar RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Baxşəliyev Famil Ağamoğlan oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 13 sentyabr 1992-ci ildə Laçın rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxşəliyev Famil Ağamoğlan oğlu 13 sentyabr 1992-ci il tarixində Laçın rayonunun Hocaz dağı ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Baxşəliyev Famil Ağamoğlan oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BAXŞƏLİYEV MUSA İSRAFİL oğlu**



1928-ci ildə Azərbaycan Respublikasının Zəngilan rayonunda doğulmuşdur. İtkin düşənə qədər Zəngilan rayonunun Malatkeşin kəndində yaşamışdır. Mülki şəxs. Baxşəliyev Musa İsrafil oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünə təcavüz edən Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələr tərəfindən 29 oktyabr 1993-cü ildə Zəngilan rayonu işğal olunduğu zaman itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Baxşəliyev Musa İsrafil oğlu 29 oktyabr 1993-cü il tarixində erməni silahlı birləşmələri Zəngilan rayonunu işğal edən zaman Mincivan qəsəbəsi ərazisində Araz çayı sahilində naməlum şəraitdə itkin düşmüşdür. Baxşəliyev Musa İsrafil oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə... Azərbaycan gənclərinin vətənpərvər ruhda tərbiyəsinə yönəlik fəaliyyətlər davam etdirilir...

**Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır. Bu bir həqiqətdir ki, vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məqlubedilməzlik hissi yaradır, apardığı mübarizədə onda inam hissini gücləndirir. Vətənpərvərlik qəhrəmanlığın əsasını qoyan amildir.**




Biz şanlı tariximiz, əfsanəvi qəhrəmanlarımızla həmişə fəxr edirik. Xüsusən, erməni qəsbkarlarına qarşı mübarizə aparan igid və cəsur sərkərdələrimizin şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Və bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Odur ki, erməni qəsbkarlarına qarşı ölümdirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi apardığımız hərbi vətənpərvərlik tərbiyəsi işində ön plana keçməlidir. Yaxın keçmişin acı təcrübəsi bir də onu sübut etdi ki, müstəmləkə siyasətinə xidmət edən, əslində Azərbaycan xalqına müsibətlər gətirən beynəlmiləlçilik tərbiyəsi sən demə genosid planının və türklərə qarşı siyasətin tərkib hissəsi imiş. Rus imperiyası işi qəsdən elə qurmuşdu ki, xalq öz soykökündən, qəhrəmanlıq tarixindən, adət-ənənələrindən uzaq düşsün. Hazırda isə respublikamızın ümumtəhsil, orta ixtisas və ali məktəblərində tədris olunan təbiət və cəmiyyət elmlərinin, humanitar fənlərin, ümumilikdə bütün fənlərin gənclərdə hərbi-vətənpərvərlik hissləri aşılamaq üçün çox böyük imkanları vardır.

***

Gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsini o zaman daha yaxşı aşılamaq mümkündür ki, orta məktəblərdə oxuyan şagirdlərə və ali məktəbdə təhsil alan tələbə-gənclərə ayrı-ayrı fənləri və ixtisas kurslarını tədris edərkən hərbi məzmunlu biliklər də verilsin. Artıq bu gün müstəqil respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkilindən, vətəndaşlıq hazırlığından asılıdır. Məlum olduğu kimi gənclərin bir vətəndaş kimi böyüməsində ailənin, cəmiyyətin, ümumilikdə mühitin rolu böyükdür. Gənclərimiz bir insan kimi, vətəndaş kimi ilk tərbiyəni ailədən alır. Burada onlar əxlaqi-mənəvi keyfiyyətləri, fiziki möhkəmliyi, əmək vərdişlərini, davranış qaydalarını, bədii-estetik duyumu və s. kimi keyfiyyətləri qazanır. Tərbiyənin əsas məqsədi kamil şəxsiyyət, layiqli vətəndaş yetişdirməkdir. Vətəndaş tərbiyə etmək-mənsub olduğu dövlətin inkişafına çalışan, mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan, dövlətin cari və perspektiv işlərində iştirak edən, insan yetişdirmək deməkdir. İnsan fərd kimi doğulub, vətəndaş kimi fəaliyyət göstərərək tərbiyə-təhsil, əmək prosesində vətəndaş hazırlığı keçir. Əsl vətəndaş dedikdə, bilavasitə vətənə, dövlətə gərək olan fəaliyyəti ilə xidmət edən, böyük mənəvi keyfiyyətlərə malik olan insan nəzərdə tutulur. Vətəndaşlıq tərbiyəsinin mənbəyi ailədir. Təcrübə göstərir ki, ailədə vətəndaşlıq tərbiyəsi yalnız özbaşına axınla, kor-korana deyil, planlı, sistemli, məqsədli şəkildə təşkil olunmalıdır. Uşaqların vətəndaşlıq tərbiyəsi dedikdə, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə yiyələnmə və şəxsiyyət kimi yetişmə nəzərdə tutulur. Onlar davranış qaydalarını, nizam-intizamı, savadlı olmağı, vətəninin tarixini, coğrafiyasını, mədəniyyətini, milli adət-ənənələrini bilməli, vətəni sevməlidirlər. Gənclər ideyaca savadlı olmalı, işə şüurlu yanaşmalı, məsuliyyətli, vicdanlı, mübariz olmalı, pis niyyətlə, əliəyriliklərlə barışmamalıdır. Mənəviyyat tərbiyəsini qiymətləndirmək üçün gənclərdə yaxşını pisdən ayırmaq, həqiqətə, ədalətə, insanlara-böyüklərə, ailə üzvlərinə hörmət etmək kimi insani keyfiyyətlər aşılanmalıdır. Onların davranışı xüsusiyyətlərinə uyğun qiymətləndirməli, yaxşı davranış və qarşılıqlı əlaqə təmin olunmalıdır. Azərbaycan Respublikasında hüquqi, demokratik dövlət quruculuğu inkişaf etdikcə vətənpərvərlik tərbiyəsinə, o cümlədən böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilməlidir.

İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Lakin vətənpərvərlik təkcə Vətəni sevmək deyildir. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır. Vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, təhsilin ən vacib vəzifələrindən olub. Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Bu, xüsusən ümumtəhsil məktəblərinin ən vacib vəzifələrindən hesab olunur. Həmin sahədə həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki, psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir. Etiraf edilməlidir ki, Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb edir.

*ALİM*

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**



# Sədaqətin, məhəbbətin, dostluğun yaşı olmur, əzizim Zülfiyyə xanım...

*Bu gün tanınmış aktrisa, bədii qiraət ustası Zülfiyyə Eldarqızının doğum günüdür*

*Hər kəsin bir eşqi, bir allahı var,*
*Mənim tanrım gözəllikdir, sevgidir.*

Ulu Cavidin ruhundan, könlündən qopan bu həzin və kövrək etirafı saysız sənətkarın dilindən duymuşam, lakin heç bir səs mənə Zülfiyə Eldarqızının səsindən gələn titrəyişi hiss etdirməyib. Əslində, titrəyiş yaradan nə varsa, hamısı mübhəm duyğunun təzahürüdür, gözlə görünməyən, qulaqla eşidilməyən, lakin könüllə duyulan bir duygunun, hissin. Duyumlu adamlar bilirlər ki, səsin yaratdığı effekti qulaqdan əvvəl ruh hiss edir.

Zülfiyyə Eldarqızı bir sənətkar kimi, bədii qiraət ustası olaraq könüllərə təsir etməyi bacarır. Bunun üçün xüsusi cəhd də göstərmir heç. İnsanların qəlbində bu təsir təbii yaranır. Yaradanın icazə verdiyini bəndə qəlbən hiss edir, canına çəkir.

Z.Eldarqızı heç kəsə bənzəməyən, heç kimi təqlid etməyən bədii qiraət ustası kimi tanınır. Bədii qiraət ustaı olmaqla yanaşı, o həm də müəllimdir, eyni zamanda, aktrisadır. Mübaliğəsiz deyə bilərəm ki, Zülfiyyə xanım saf adamdır. Başqa həmkarlarından fərqli olaraq, həyatda rol oynamır, həyatını həyat kimi yaşayır. Özünün çox yaxşı bir sözü var: "Mən ancaq səhnədə aktrisayam, orada rol oynayıram, həyatda isə özüməm. Mən həyatla səhnəni heç zaman səhv salmamışam, salmaram da". Məncə, bu etiraf dediyimin ən əyani sübutudur.

Zülfiyyə xanımı illərdir tanıyıram. Aramızdakı yaxınlığın, dostluğun, xoş ünsiyyətin yaranmasında onun saflığının, səmimiliyinin və ifrat sədaqətinin böyük rolu var. O, hədsiz dərəcədə sədaqətli qadındır. Sədaqət hissi bizim cəmiyyətin ən yaralı yeridir və insanlar çox zaman doğmalarından belə sədaqət görə bilmirlər. O isə nəinki doğmalarına, dostlarına, hətta uzaqdan-uzağa tanıdığı adamlara belə sədaqətli ola bilər. Çünki sədaqətində səmimidir. Bəzən fikirləşirəm ki, onun kimi təmiz ürəkli, saf insana qarşı nə üçün "uf" demədən ədalətsizlik edənlər tapılır? Hətta "dost" deyib arxa-dayaq olduğu, dar gündə bir addım uzaqlaşmadığı bəzi insanlar belə onun "kürəyinə bıçaq sancmaqdan" çəkinməyiblər. Zülfiyyə xanım isə kinsiz-küdurətsiz insan olduğundan, "dostlar"ın bu namərdliyinə təbəssümü ilə cavab verir. Bəlkə də onun bu təbəssümü onların üzünə vurulan sərt şillədən betər olur.

Z.Eldarqızı redaksiyamızın bir üzvü kimi hər zaman yanımızdadır, o heç zaman bizi tərk etməyib. Bir gün gəlməyəndə hədsiz dərəcədə darıxırıq ki, görəsən o, bu gün niyə gəlməyib.

Z.Eldarqızının sənəti, səhnə fəaliyyəti, müəllimliyi onun görünən tərəfidir. Mən onun rolları, ifa etdiyi şeirlər, müəllimlik fəaliyyəti haqqında geniş danışmaq istəmirəm. Çünki bunu tamaşaçılar, dinləyicilər, tələbələr çox yaxşı bilirlər. Zülfiyyə xanımın yaxşı müəllim olmasını təsdiq edən saysız faktlarım var. Onun Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən, az qala ömrünün 20 ilini xərclədiyi ali təhsil ocağından uzaqlaşdırılması böyük ədalətsizlik olsa da, bu gün keçmiş tələbələrinin onu axtarması, görüşünə gəlməsi Zülfiyyə xanımın bir müəllim kimi özünə böyük sevgi qazanmasının göstəricisidir.

Əlbəttə, onun müəllimliyinin də, aktrisalığının da fövqündə onu şəxsiyyəti, insanlığı dayanır.

Zaman, vaxt bizdən çox şey oğurlayır, ildənilə yaşımızın başına sığal çəkib bizi bir yaş da böyüdür. Zülfiyyə xanım da yeni yaşına qədəm qoyur.

Onun neçə yaşının tamam olması mənim üçün əsas deyil, əsas odur ki, illər onu dəyişdirməyib, o, gənclik illərimizdə tanıdığım, ürəyimə yaxın bildiyim həmin qızdır, saf, təmiz, halal, sədaqətli... Sədaqətin, məhəbbətin, dostluğun yaşı olmur, əzizim Zülfiyyə xanım... Dəyişən illərdir, dəyişən fəsillərdir, əsas odur ki, mənən, ruhən, qəlbən dəyişməyən bizlərik, sənsən, sənə bənzər insanlardır. Ürəyinin, ruhunun köynəyindən keçirib səsləndirdiyin şeirlərdir nəfəsini, səmimiyyətini yaşadan, duyğularını min-min ürəklərdə dilə gətirən...

Yeni yaşın mübarək, əziz dostum!

***İradə SARIYEVA***

# Lombard əmanətləri də sığortalanacaq...

**Xəbər verildiyi kimi, Azərbaycanda lombardlara girov qoyulan əşyalar sığortalanacaq. Bu barədə yeni hazırlanan "Lombardlar haqqında" qanun layihəsinin 7-ci maddəsində (Girov qoyulan və ya saxlamaya qəbul edilən əşyanın sığortalanması) bildirilib.**

*"Bəzən insanlar pulu gətirib girov qoyduğu qızıl-zinət əşyalarını götürmək istəyəndə..."*

***Fuad İbrahimli:** "Lombarda girov kimi qoyulan əşyaların sığortalanması vətəndaşların xeyrinə olacaq"*

Sənəddə qeyd edilib ki, lombard girova qoyulmuş və ya saxlamaya qəbul edilmiş əşyanı, həmin əşyanın bu qanunun 6-cı maddəsinə əsasən müəyyənləşdirilmiş qiymətinin tam məbləğində öz vəsaiti hesabına, müştərinin xeyrinə, əşyanın mənimsənilməsi, israf edilməsi, zədələnməsi, məhvolma və itirmə risqindən sığortalamalıdır.

Lombard öz vəsaiti hesabına girov qoyulmuş, ya saxlamaya qəbul edilmiş əşyaları digər risqlərdən sığortalaya bilər.

Ekspertlər lombarda qoyulan zinət əşyasının sığotalanmasının tərəfdarıdırlar.

Məlumdur ki, lombarda qoyulan qızıl əşyaları ilə bağlı dəfələrlə xoşagəlməz xəbərlər yayılıb. Bəzən müştərilər lombarda qoyulan qızılın ya dəyişdirildiyini, ya da həmin zinət əşyasının qaşlarının dəyişdirildiyini iddia edirlər.

Bu kimi halların yaşanmaması üçün lombarda qoyulan qızıllar artıq sığortalanacaq.

**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Fuad İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda vətəndaşlar lombardların fəaliyyətindən narazıdırlar:** "Lombardlarla bağlı çoxlu şikayət daxil olur. Lombard rəhbərləri camaatı incidirlər. Bəzən insanlar pulu gətirib girov qoyduğu qızıl-zinət əşyalarını götürmək istəyəndə lombardlar guya həmin əşyaları satdıqlarını deyirlər, ya da daşqaşların dəyişdirilməsi halları ilə üzləşirlər. Bunların hamısı dələduzluqdur və Cinayət Məcəlləsinə uyğun cəza verilməlidir.



**Vətəndaşların bu kimi xoşgəlməz hallarla qarşılaşmaması üçün lombarda qoyulan qızıl və digər əşyalar sığortalanmalıdır. Zinət əşyaları sığorta olunarsa, vətəndaşa dəyən ziyan sığorta şirkəti tərəfindən ödəniləcək".**

Həmsöhbətimiz onu da vurğuladı ki, "Lombardlar haqqında" qanun layihəsi lombardların fəaliyyətini tənzimləmək baxımından böyük addımdır.

***Günel CƏLİLOVA***

# "Anar müəllim belə bir qənaətə gəldi ki, ya Çingiz Abdullayevdən üzr istəyib AYB-yə qaytarılmağımı xahiş etməliyəm, ya da..."

## *Elşad Barat: "Bu şəxslərin görüşdə iştirak etməsi məndə ciddi suallar yaratdı"*

## *Rəşad Məcid: "O, telefon danışığı zamanı özünü elə apardı ki, Azərbaycanın ən sakit adamı ona mən dediyimdən 10 qat artıq təhqiredici söz deyərdi"*

**Yaradıcılıq qurumlarının bir çoxunda yaradıcılıq söhbətlərindən, yaradıcılıq sahəsinin inkişafından daha çox dedi-qodu, qalmaqal, dava-dalaş üstünlük təşkil edir. Sirr deyil ki, tarixən yaradıcılıq qurumlarında intriqa, söz-söhbət, xoşagəlməz hallar yaşanıb. Hətta ən istedadlı qələm adamları, sənətkarlar belə, dedi-qodu, intriqa hədəfinə çevriliblər. Zaman-zaman bir çox söz-söhbət, qalmaqalların gündəmdə olan Azərbaycan Yazıçılar Birliyi də istisna deyil.**

Bu qurumda da vaxtaşırı olaraq Birlik üzvləri arasında xoşagəlməz hallar yaşanıb. Deyək ki, Birliyə qarşı sərt tənqidlər səsləndirən, bu qurumu və onun rəhbərliyini müxtəlif məsələlərdə günahlandıran yazarlar Birlik üzvlüyündən xaric ediliblər. Hətta bəzi yazarlar bu qurumun üzvlüyündən istefa verməkdən çəkinməyiblər. Birlik rəhbərliyi isə çox zaman qeyd edib ki, AYB-yə qarşı çıxan yazarlar ədəbiyyata heç bir xidmət göstərməyib və onlar yalnız mənasız intriqa ilə məşğul olublar.

Qeyd edək ki, Azərbaycan Yazıçılar Birliyindən indiyə qədər çıxarılanlar sırasına mərhum yazıçı Rafiq Tağı (Səməd Vurğun haqqında tənqidi yazısına görə), Əkrəm Əylisli ("Daş yuxular" romanına görə), Şərif Ağayar (Fikrət Qocaya zarafatla "o, hələ ölməyib?" dediyinə görə), Kəramət Böyükçöl (Klassikləri sərt tənqid etdiyinə və AYB-yə ironik münasibətinə görə), Ayxan Ayvaz (AYB rəhbərliyi haqda sərt fikirlər səsləndirdiyi müsahibəyə görə), Elşad Barat (Çingiz Abdullayevlə bağlı yazdığı statusa görə) daxildir. Onu da vurğulayaq ki, Zahir Əzəmət, Elnur Astanbəyli, Tehran Əlişanoğlu, Salam Sarvan, Rüstəm Behrudi, Nəriman Əbdülrəhmanlı, Qismət, Mövlud Mövlud, Rəbiqə Nazimqızı, Aysel Əlizadə, Elnaz Eyvazlı, Babək Göyüş, Elvin Bakiroğlu isə Birlik üzvlüyündən istefa veriblər.

Bu gün mətbuatda və sosial şəbəkələrdə ən çox müzakirə edilən məsələlərdən biri gənc yazar Elşad Baratın Birlik üzvlüyündən xaric edilməsidir. Məlum olduğu kimi, gənc yazar Elşad Baratla Azərbaycan Yazıçılar Birliyinin (AYB) katibi, Xalq yazıçısı Çingiz Abdullayev arasında baş verən qalmaqal, söz dueli gənc yazarın AYB üzvlüyündən kənarlaşdırılması ilə nəticələnib.

Mətbuatın yazdığına görə, AYB-də keçirilən mühüm iclasda gənc şair Elşad Baratın Azərbaycan Yazıçılar Birliyindən xaric edilməsi barədə qərar verilib. AYB-dən bildirilib ki, Katibliyin toplantısında AYB üzvü Elşad Baratın nalayiq hərəkətlərilə bağlı məsələ müzakirə edilib. Qərara alınıb ki, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elşad Barat sosial şəbəkələrdə mərhum şair və yazıçıların xatirəsini təhqir etdiyi, yazıçılara şər-böhtan atdığı üçün Azərbaycan Yazıçılar Birliyinin üzvlüyündən xaric edilsin.

AYB üzvlüyündən uzaqlaşdırılmasının səbəblərinə aydınlıq gətirən Elşad Barat "Bakı-Xəbər"ə bildirdi ki, buna səbəb bir neçə gün əvvəl baş verən hadisə olub: "Bir neçə gün öncə sosial şəbəkədə paylaşılmış və yazıçı Çingiz Abdullayevə məxsus olduğu iddia olunan maşın şəkli gördüm, diqqətimi çəkdi, mən də hər kəs kimi, istər-istəməz, yazılanların bir insan kimi təsiri altına düşdüm və vaxtilə Zaur Baxışəliyev, Xoşqədəm Hidayətqızı, hətta Anar müəllimin öz qızı Günel xanımın və s. maşınları haqqında da şəkil-məlumat dərc edilmişdi deyə bu məsələni normal hesab edib, həm də bir şair kimi hislərimə qapanıb şairanə münasibətimi bildirdim. Təəccüblü məqam budur ki, Xalq yazıçısı, PEN Klubun sədri, "Nefçi"də şura sədri, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin sədri və özü müsahibəsində dediyi kimi, başqa 33 təşkilatın sədri Çingiz Abdullayev həmin şəklin altında şəxsən fikirlərini yazaraq alçaldıcı ifadələrlə məni böhtançı, alçaq, vicdansız və bu kimi sözlərlə təhqir etdi. İndi də özümə inana bilmirəm ki, hələ də bu təhqirlərə qanun çərçivəsində cavab verməmişəm. Amma lazım gələrsə... Bu hadisədən bir gün sonra AYB-dən xaric olunduğumu mətbuatdan oxudum və dəqiqləşdirmək üçün Birlik sədri, Xalq yazıçısı Anar müəllimə zəng etdim. Anar müəllim məni Yazıçılar Birliyinə dəvət etdi. Onu da bu aralıqda deyim ki, Çingiz Abdullayev bildirib ki, maşınının şəklini paylaşdığıma görə məni məhkəməyə verəcək, qoy versin. Bəs mən həm Çingiz Abdullayev, həm də Rəşad Məcid tərəfindən sərt şəkildə təhqir olunduğuma görə kimləri məhkəməyə verməliyəm? Tutaq ki, mənim paylaşdığım maşın şəkli heç Çingiz Abdullayevin deyil. Bəs AYB büdcəsinin puç olmuş taleyini hansı "maşınların" ayağına yazaq?".



*"... bir gənc yazıçı kimi indiyə qədər müəyyən səhvlərə yol vermişəm"*

E.Barat, həmçinin, qeyd edir ki, AYB katibləri ona qarşı hücuma keçərək təhqir ediblər. Onun sözlərinə görə, hətta AYB sədri, Xalq yazıçısı Anarla görüşərkən belə, Birlik katibləri onların təkbətək söhbətinə mane olublar: "Hər zaman Anar müəllimə inanan gənc kimi bu gün Birlikdə onunla görüşə getdim. Maraqlıdır ki, Anar müəllimlə təkbətək görüşə getdiyim halda Rəşad Məcid və Birliyin mətbuat xidmətinin rəhbəri Xəyal Rza etirazıma baxmayaraq, həmin görüşdə iştirak etdilər. Görüşün ilk dəqiqələrində hiss etdim ki, o şəxslərin görüşdə iştirakı öncədən planlaşdırılmış hansısa məqsədə xidmət edir. Çünki bir neçə gün öncə Rəşad Məcid mənim şəxsi telefon nömrəmə zəng edərək mənə "küçük" və s. sözlər deyərək şərəf və ləyaqətimi alçaltmağa çalışmışdı. Bədbəxtlikdən telefonum bütün danışıqları qeydə alır. Xəyal Rza isə AYB-də mətbuat xidmətindən başqa hər işlə məşğul olduğu üçün, həmişə mətbuatın, eyni zamanda, mənim kimi bir çox gənc yazarın tənqid obyekti olub. Bu şəxslərin görüşdə iştirak etməsi məndə ciddi suallar yaratdı. Nəhayət, Anar müəllimin otağına daxil olanda stolunun üstündəki böyük kağız kütləsi diqqətimi çəkdi. Sonra məlum oldu ki, Birliyin mətbuat xidməti Birlikdə kağız qoymayıb, hamısına mənim son illər sosial şəbəkələrdə yazdığım ən kiçik və elə də əhəmiyyət kəsb etməyən statuslarımı belə çap edərək Anar müəllimin qarşısına toplayıb. Lap özümü Mikayıl Müşfiq kimi hiss etdim. Söhbətimizə Rəşad Məcidin xeyli müdaxilələrindən sonra Anar müəllim belə bir qənaətə gəldi ki, ya Çingiz Abdullayevdən üzr istəyib AYB-yə qaytarılmağımı (Kənan Hacı kimi) xahiş etməliyəm, ya da Salam Sarvan kimi saytların qonorarı hesabına "səfil" həyat yaşamalıyam. Sözümün Rəşad Məcid tərəfindən dəfələrlə kəsiləcəyinə görə susdum. Susmamışdan qabaq isə Anar müəllimin "get Çingizdən üzr istə" fikrinə bunları demişdim: Anar müəllim, siz bizim dəyərli yazıçımız, böyüyümüz, ağsaqqalımızsınız, biz bəzən AYB-yə ocaq kimi, pir kimi baxırıq, amma... Ən çox təəssüf doğuran məqamlardan biri də budur ki, görüşümüz az qala bitməmiş Rəşad Məcid AYB adından saytlara məlumat ötürdü. Mənim adımdan fikirlər bölüşdü. Həm də köndələn. İndi isə mən bu yazı vasitəsilə bəyan edirəm ki, bir gənc yazıçı kimi indiyə qədər müəyyən səhvlərə yol vermişəm. Bu da təbiidir. Amma məhz AYB-nin fəaliyyəti haqqında dediklərim elə AYB-nin daha səmərəli fəaliyyətinə yönəlmiş tənqidlərdir. Son illər kifayət qədər yazıçıların tənqid obyektinə çevrilən AYB katibləri Çingiz Abdullayev, Rəşad Məcid ictimaiyyətin tənqidlərindən nəticə çıxarmaq və demokratik vəziyyət sərgiləmək yerinə, hələ də hədə-qorxu, şantaj və bu kimi işlərlə məqsədlərinə çatmaq niyyətindədirlər. AYB-nin düzəlməsi Azərbaycan ədəbiyyatının düzəlməsidir. Biz gənclər özümüzü AYB fəaliyyəti ilə tənzimləmək istəyirik, amma təəssüflər olsun ki, sözügedən katiblər timsalında Birlik özünü təsdiq edə bilmir. Onu da qeyd edim ki, mənim tənqidlərim Anar müəllimə yox, məhz yuxarıda adları çəkilən katiblərin fəaliyyətinə işarədir. Düşünürəm ki, Çingiz Abdullayevdən üzr istəməyim haqqın nahaqdan üzr istəməsi kimidir. Çünki o maşın şəkli Çingiz Abdullayevin deyildisə, sakitcə bildirə bilərdi ki, a bala, o maşın mənim deyil, mən də üzrxahlıq edib silərdim. Bütün olanlara, şəxsiyyətimin alçaldılmasına yönəlmiş oyunlara və başqa bir çox haqsızlığa görə bəyan edirəm ki, AYB-də doğru və sağlam bir mühitin hakim olduğu günə qədər mən və mənim kimi düşünən və Azərbaycanın çoxsaylı yazıçı gəncləri öz fəaliyyətimizi dayandırmayacağıq" - deyə E.Barat qeyd etdi.

*"Çingiz Abdullayevdən üzr istəməyim haqqın nahaqdan üzr istəməsi kimidir"*

**E.Baratın Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcidə qarşı səsləndirdiyi ittihamlarla bağlı R.Məcidin də fikrini öyrəndik. R.Məcid qeyd etdi ki, həqiqətən E.Baratla aralarında telefon söhbəti olub. "Mən o adamla telefonda danışmışam. O, telefon danışığı zamanı özünü elə apardı ki, Azərbaycanın ən sakit adamı ona mən dediyimdən 10 qat artıq təhqiredici söz deyərdi. Mənim ona elə söz deməyim yadımdadır. Deməmişəmsə və o, yadında saxlayıbsa saxlasın" - deyə R.Məcid bildirdi.**

*İradə SARIYEVA*

# Məktəblərdə qadın müəllimlərin mütləq çoxluğa çevrilməsi oğlanların xarakterində özünü göstərməyə başlayır

## *"Oğlan uşaqlarının mənəvi-psixoloji inkişafı naminə məktəblərdə kişi müəllimlərin olması çox vacibdir"*

**İnsanın formalaşmasında müəllimin, tərbiyəçinin rolu valideynun rolu qədərdir, bəlkə də bir qədər ondan artıqdır. Uşaq və yeniyetmələrin mənəvi-psixoloji tərbiyəsinin inkişafında müəllim amilinin yeri danılmazdır. Xüsusən də kişi müəllimlərin oğlan uşaqlarının yetişməsində rolu böyükdür.**

Amma təəssüf ki, son dövrlər dünyanın təhsil mənzərəsinə baxdıqda kişi müəllimlərinin sayının azaldığını müşahidə etməli oluruq. Bu özünü daha çox Azərbaycan ümumtəhsil məktəblərində büruzə verir. 25-30 il bundan əvvəllə müqayisədə, demək olar ki, kişi müəllimlərinin sayının kəskin azalmasının şahidi olmuşuq. Öncəki dövrlərdə məktəblərdə az qala qadın və kişi müəllimlərin sayı bərabər idi. Kənd məktəblərində isə ibtidai sinif və fənn müəllimlərinin böyük əksəriyyətini kişilər təşkil edirdilər. Bu gün isə bu sahədə vəziyyət çox acınacaqlıdır. Kişilərin orta ümumtəhsil sistemindən uzaqlaşması bir sıra ciddi fəsadlar yaradıb. Bu özünü xüsusən yetkinlik yaşına çatan şagirdlərin tərbiyəsində göstərir. Gizlin deyil ki, orta ümumtəhsil məktəblərində həm aşağı, həm də yuxarı sinif şagirdləri əsasən qadın müəllimlərlə ünsiyyətdə olurlar. Hətta iş o yerə çatıb ki, idman fənnini də bir sıra hallarda qadınlar tədris edir. Belə baxanda, bəzi istisnaları nəzərə almasaq, kişi müəllimlər yalnız hərbi dərsləri keçirlər, qalan müəllimlər isə qadınlardır.

Qadın müəllimlərinin sayının bu şəkildə artması təbii ki, nə dövlətin, nə Təhsil Nazirliyinin, nə də ki, təhsil müəssisələrinin günahıdır. Bu bir təbii proses kimi özünü göstərir. Olduqca zərərli tendensiya olan bu mənfi halın fəsadlarını bu gün yaxından hiss edirik. Bu gün orta ümumtəhsil məktəblərində təhsil alan müəyyən qisim oğlan uşaqlarının davranışlarında, hərəkətlərində, danışıq tərzlərində qadın jestləri müşahidə edilməkdədir. Oğlan uşaqları az qala qadın müəllimləri təqlid edirlər. Bu da onların, qeyd etdiyimiz kimi, mənəvi-psixoloji cəhətdən kişi kimi inkişafına zərbə vurur. Onlar məktəbdə də, repetitor yanında da əsasən qadın müəllimlərlə ünsiyyətdə olur, biliyi onlardan əldə edirlər. Hətta elə oğlanlar var ki, uşaqlıqdan ana himayəsində böyüyür və bu da müəyyən qədər onun psixologiyasına təsir göstərir.

Qeyd edək ki, təhsil nazirinin müavini İdris İsayev "Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında ombudsmanların rolu" mövzusunda keçirilən Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransında çıxışı zamanı bildirib ki, statistik göstəricilərə görə, Azərbaycanda təhsil sistemində çalışanların çoxunu qadınlar təşkil edir. O, həmçinin, vurğulayıb ki, Dayanaqlı İnkişaf Məqsədlərində əsas göstəricilərdən biri də təhsil sistemində gender məsələsinin gözlənilməsidir.

İ.İsayevin bildirdiyinə görə, ölkəmizdə təhsil sistemində çalışan müəllimlərin 79 faizini qadınlar, təhsil alanların isə 47 fazini qızlar təşkil edir: "Peşə təhsilində müəllimlərin 69 faizi, tələbələrin 33 faizi, orta ixtisas səviyyəsində müəllimlərin 78 faizi, tələbələrin 65,6 faizi qadınlardır.

Tanınmış psixoloq Azad İsazadə "Bakı-Xəbər"ə mövzunu şərh edərkən bildirdi ki, Azərbaycan ümumtəhsil məktəblərində qadın müəllimlərinin sayının çox olması həqiqətən də müəyyən problemlər yaradır. "Bunun mənfi və müsbət tərəfləri var və biz söhbətimizi bu ətrafda quracağıq. Burada ənənə amili də var. Qadın müəllimlərin çoxluq təşkil etməsinin şagirdlərə mənfi təsirinə gəlincə, deyim ki, bu, Sovet dövründə də belə idi. İbtidai siniflərdə adətən müəllim qadın olur. İbtidai sinif müəllimlərinin qadın olmasının uşaqlara heç bir mənfi təsiri yoxdur. Qadın müəllimlər uşaqlarla məşğul olmağa psixiloji və fiziki olaraq hazırdır, çünki o anadır. Uşaqlarla dil tapmağı, onlarla məşğul olmağı və s. daha yaxşı bacarır. Uşaqlara münasibətdə qadın müəllimlər daha yumşaq və diqqətli olurlar. Amma kişi müəllimlər daha quru olur və uşaqlara yalnız material verirlər. Bir məktəbdə bir kişi müəllim varsa, bütün şagirdlər onunla ünsiyyətdə olmaq istəyir. Ona görə ki, o daha maraqlı danışır. Tədris və tərbiyə baxımından qadın müəllimlərin hər hansı bir mənfi cəhətini görmürəm. Lakin sözsüz ki, oğlanlar üçün əsasən yeniyetməlik yaşında avtoritet olan kişi müəllimlərinin dərs keçməsi müsbət hal olardı" - deyə A.İsazadə qeyd etdi.



*Azad İsazadə: "Bir məktəbdə bir kişi müəllim varsa, bütün şagirdlər onunla ünsiyyətdə olmaq istəyir"*

*Cavid İmamoğlu: "Müəllimlərin böyük əksəriyyətinin qadınlar olması nəticəsində qadın hərəkətlərinin adiləşməsi, oğlanlar tərəfindən təqlid olunması bir çox hallarda qaçılmaz olur"*

Tanınmış sosioloq Cavid İmamoğlunun sözlərinə görə isə qadın müəllimlərin çoxluq təşkil etməsi oğlan şagirdlərin psixologiyasına mənfi təsir göstərir. O hesab edir ki, tədris, təlim və tərbiyə işində qadın və kişi bərabərliyi qorunmalıdır. "Təəssüfedici haldır ki, Azərbaycanda tədris prosesində kişi müəllimlərin iştirakı aşağı səviyyədədir. Bunun özü də təlim-tərbiyə işinə təsirsiz ötüşmür. Bu gün Azərbaycanda boşanmış ailələrin sayında müəyyən artım var və bu cür ailələrin çoxunda uşaqlar ata modeli olmadan, yəni ananın tərbiyəsi ilə böyüyür. Təbii ki, istər qız, istərsə də oğlan uşağının tərbiyəsində, inkişafında bir ideal kişi obrazının olması vacibdir. Ata olmadığı təqdirdə bu obrazın müəllim olması daha məqsədəuyğun olardı. Ona görə ki, kişi müəllim bütün uşaqlara, şagirdlərə, bütövlükdə, kollektivə öz davranışları, xarakterləri baxımından nümunədir. Məktəblərimizdə kişi müəllimlərin sayının azlığı uşaqları ideal kişi müəllimi obrazsız qoyur. Tədris prosesində oğlanlar, xüsusilə də yeniyetmələr öz ətraflarında onlara təsir edə biləcək ideal kişi müəllimləri görmək istəyirlər. Lakin onu təəssüf ki, görmürlər, yalnız qadın müəllimlərlə ünsiyyətdə olurlar. Müəllimlərin böyük əksəriyyətinin qadınlar olması nəticəsində qadın hərkətlərinin adiləşməsi, oğlanlar tərəfindən təqlid olunması bir çox hallarda qaçılmaz olur. Ona görə də təhsil siyasətinin tərkibinə daxil olan məsələlərdən biri də budur ki, təhsildə gender bərabərliyinin qorunması arzuolunandır. Bunun üçün də təhsil müəssisələrində, eləcə də cəmiyyətin bütün sferalarında bu məsələ ilə bağlı müzakirələr aparılmalıdır. Müəllimlik işinin kişiyə aid olan bir iş olması, müəllimlik sənətinin kişi işi olmasına dair təbliğat aparılmalıdır".

C.İmamoğlu hesab edir ki, kişilərin pedaqoji işə maraq göstərməməsinin səbəbi müəllimlərin maaşının az olmasıdır. Müəllimlərin maaşının artırılmasının zaman-zaman öz təsirini göstərəcəyini deyən C.İmamoğlunun sözlərinə görə, hazırda kişi müəllimlərin təhsil müəssisələrinə cəlb edilməsi üçün işər görülməlidir. "Kişi obrazını məktəbdə şagird görmür. Ona görə ki, o, kişi müəllimi deyəndə yalnız idman və hərbi müəllimi təsəvvür edir. Halbuki, bu çox azdır. Şagirdlər məktəbdə həm kişi, həm də qadın müəllimləri görməlidirlər. Arzuolunandır ki, gender nisbəti bərabər olsun. Çünki sizin qeyd etdiyiniz məsələlər, oğlan uşaqlarının davranışlarında kişilik xüsusiyyətlərinin itməsi ciddi məsələdir. Oğlanlar qadınlara ehtiramı, onlarla ünsiyyət qurmağı, davranmağı kişi müəllimlərdən əxz etməlidirlər.

**Bunların hamısını yeniyetmə oğlanlar görüb götürürlər. Ona görə də oğlan uşaqlarının mənəvi-psixoloji inkişafı naminə məktəblərdə kişi müəllimlərin olması çox vacibdir" - deyə C.İmamoğlu qeyd etdi.**

*İradə SARIYEVA*

№ 107 (4005) ■ Qiymәti: 40 qәpik

BAKI XƏBƏR

www.baki-xeber.com

20 İYUN 2019-cu il



# Marsda insan vә heyvan sümüklәri...

**Virtual arxeoloqlar Marsda yeni kәşflәrә imza atmağa davam edirlәr. Bu yaxınlarda Marsın fotolarını incәlәyәn ufoloqlar sümük qalıqlarına rast gәliblәr.**

Ufoloq iddia edir ki, kadrlardakı qalıqlar hansısa canlının omba sümüyüdür. Tayvanlı ufoloq Skott Uorinq isә bildirir ki, "Curiosity" roveri Marsda nә vaxtsa hәyatın olduğuna dair faktları tәqdim edib. Bu marslının sümüyü olmasa da, yüz faiz hәmin planetdә nә vaxtsa yaşayan bir canlının sümüyüdür.

## İmzanı "Azercell" ilә tanıt!

*"Azercell" ölkәmizin istedadlarına dәstәk verir*

**Hәr zaman yenilikçi ideyaları vә tәşәbbüslәri dәstәklәyәn "Azercell" son günlәr әrzindә sosial şәbәkәlәrdә gündәmdә olan "İmzanı Tanıt" çağırışına dәstәk oldu.**

Qeyd edәk ki, iyun ayının әvvәlindәn etibarәn mәşhur blogerlәr, aparıcılar vә media nümayәndәlәri sosial şәbәkәlәrdә rezonans yaradaraq, istedadına vә bacarığına gүvәnәn yaradıcı şәxslәri öz әl işlәrini #imzanitanit "hashtag"ı altında paylaşıb, imzalarını geniş kütlәyә tanıtmağa tәşviq etdilәr. Çağırış çox qısa müddәt әrzindә hәr kәsin rәğbәtini qazanmağa müvәffәq oldu vә yüzlәrlә sәnәtkar bu fikir әtrafında cәmlәnәrәk istedadlarını sosial şәbәkәlәrdә nümayiş etdirdilәr.

Ölkәmizdә gәnclәrin peşәkar vә fәrdi inkişafına, mütәlie mәdәniyyәtinin tәbliğ edilmәsinә daim öz töhfәsini verәn "Azercell" şirkәti Azәrbaycanda istedadları kәşf etmәyә fürsәt yaradan "İmzanı Tanıt" sosial tәşәbbüsünә dә biganә qalmayıb. Sosial hәrәkata dәstәk olmaq mәqsәdilә әn maraqlı paylaşımlar şirkәtin xüsusi münsiflәr heyәti tәrәfindәn seçilib, "Azercell"in sosial media sәhifәlәrindә bütün ölkәyә tanıdılacaq.

Qeyd edәk ki, rәqәmsal dünyanın әn son yeniliklәrini daha әlçatan etmәyi hәdәflәyәn "Azercell" bununla da kifayәtlәnmәyib. "Azercell" şirkәti "İmzanı Tanıt" çağırışını ölkәmizdә kiçik sahibkarlıq mühitinin inkişafı, elәcә dә tarixi vә milli mәdәni irsimizi tәbliğ etmәk fürsәti kimi dәyәrlәndirir vә sosial şәbәkәlәrdә dәstәk olmaqla yanaşı, layihәnin daha geniş miqyasda tanınması vә daha çox mәzmunun toplanması mәqsәdilә tez bir zamanda "İmzanı Tanıt" platformasını istifadәyә tәqdim edәcәyini açıqlayıb. Sayt yaradıcılıq fәaliyyәtinә әmәklәrini hәsr etmiş ustadların nәinki ölkә hüdudlarında, hәtta xaricindә dә tanınmasına sәbәb olacaq vә dünyaya ölkәmizin istedadlar mәkanı olduğunu bir daha nümayiş etdirәcәk.

Odur ki, bizi @azercell vә @imzanitanit "Instagram", hәmçinin, müvafiq "Facebook" sәhifәlәrindәn izlәyin vә layihәnin әn son yeniliklәrindәn xәbәrdar olun!

Sәn dә bizә qoşul vә imzanı milyonlara tanıt!

Daha әtraflı mәlumat üçün news@mcs.az ünvanına müraciәt edә bilәrsiniz.

## Elan

Xanaliyeva Zeynәb Şahmurad qızına Bakı şәhәri, Binәqәdi RPİ tәrәfindәn verilmiş şәxsiyyәt vәsiqәsi, "Ekspress Bank" tәrәfindәn verilmiş kartlar, VÖEN vә sosial kartı itdiyi üçün etibarsız sayılır.

## "Nar" Paralimpiya Oyunlarının iştirakçılarına dәstәk olacaq

**Gәnclәrә vә idmana yönәlik korporativ sosial mәsuliyyәt (KSM) strategiyasını davam etdirәn "Nar","Ümid" idman klubuna dәstәk olacaq. Mobil operator klub üzvlәrinin Paralimpiya Oyunlarına lisenziya qazanması üçün Avropa vә dünya yarışlarına hazırlaşmasına öz töhfәsini verәcәk.**




Bundan başqa, "Nar" idmançıların 2020-ci ildә Yaponiyanın Tokio şәhәrindә keçirilәcәk XVI Yay Paralimpiya Oyunlarında iştirakına da dәstәk olacaq. Layihә çәrçivәsindә klub idmançılarına lazım olan tәchizatı vә digәr xәrclәri "Nar" tәmin edәcәk.

Qeyd edәk ki, 2008-ci ildә yaradılan "Ümid" idman klubu atletika, üzgüçülük, cüdo vә uşaq şahmatı idman növlәri üzrә ixtisaslaşıb. Bu müddәt әrzindә "Ümid" idman klubunda ölkә, Avropa vә dünya çempionları vә Olimpiya Oyunlarının finalçıları yetişib. Eyni zamanda, klub idmançıları 2012-ci ildәn paralimpiya atletika vә üzgüçülük növlәrindә Avropa, Dünya çempionatlarının vә Paralimpiya Oyunlarının qızıl, gümüş, bürünc medallarını qazanıblar.

"Nar" korporativ sosial mәsuliyyәt (KSM) strategiyasına uyğun olaraq gәnclәrә vә idmana hәr zaman dәstәk olur. Əsas mәqsәd peşәkar idmanla mәşğul olan gәnclәrin vә yeniyetmәlәrin, eyni zamanda, fiziki mәhdudiyyәtli idmançıların dünya miqyasında Azәrbaycanı tәmsil etmәsinә dәstәk olmaqdır.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib.

"Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrinin istifadәsinә verib.

Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7500-dәn artıq baza stansiyası ilә 2,2 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.





**Qoç** - Ciddi vә dәrin hisslәr, gәrginliklәr, problemlәr istisna deyil. Hәtta, emosional şok da ola bilәr. Halbuki, situasiya soyuqqanlılıq vә düşünülmüş hәllәr tәlәb edir. Tәmkinli olun, problemlәri hәll etmәyә çalışın.



**Buğa** - Günün ilk yarısında yarana bilәcәk qәfil hadisәlәrә tam hazır olun. Çәtin, birmәnalı olmayan situasiyaların öhdәsindәn gәlmәk üçün problemlәrin çözümündә kreativ davranın.



**Əkizlәr** - Hәdәflәrlә mәqsәdlәri tәftiş edin. Onların arasında әn gәrәklisini, әlçatanını seçәrәk mәqsәdә doğru qәtiyyәtlә irәlilәyin. Saatlar keçdikcә emosional fon daha gәrgin olacaq.



**Xәrçәng** - Yetәrincә laübәli, narahat gündür. Başqalarının problemlәrinin hәllindә aktiv iştirak edәrәk öz işlәrinizi unutmayın. Mübahisәdә vasitәçilik etmәk olar. Amma hakimlik fikrinә düşmәyin.



**Şir** - Günün ilk yarısından etibarәn intensiv işlәyin. Tәnbәllik etmәyin. Bir qәdәr әvvәl başladığınız işi bitirin. Yarımçıq işlәrin sayını artırmayın. İstәnilәn layihәnin әvvәli tәki, mәntiqi sonluğu da olmalıdır.



**Qız** - Bu gün tәmas vә ünsiyyәtlәr nә qәdәr çox olarsa, gün o qәdәr uğurlu keçәcәk. İnsanaların gur olduğu yerdә vaxt keçirmәk, diqqәt cәlb etmәk, bildiklәrinizi bölüşmәk vә başqalarının problemlәrini müzakirә etmәk istәyәcәksiniz.



**Tәrәzi** - Mәqsәdlәrinizi reallaşdırmaq üçün var qüvvәnizlә çalışın. Qarşınıza qoyduğunuz hәdәfi nә qәdәr tez "vursanız", bir o qәdәr yaxşıdır. İmkan olan kimi fәal işlәyin. Yorulsanız, dincәlin. İfrat yorğunluqda fәsadlar yoxdur.



**Əqrәb** - Tәhlükәsizlik qaydalarına riayәt edin. Ehtiyatlı, tәmkinli olun. Soyuqqanlı insan tәsiri bağışlamağınız gәrәkdir. Yaxşı tanımadığınız insanlarla münasibәtlәrdә emosiyalara uymayın.



**Oxatan** - Ətrafda nәlәrin baş vermәsindәn asılı olmayaraq, tәmkinli vә sәbrli olun. Başqalarının, daha emosional vә tәmkinsiz insanların qarşılaşdıqları insanların problemlәrini bu minvalla dәf edә bilәrsiniz.



**Oğlaq** - Sakit, ahәstә işin çәtinlәşdiyi bir zamandır. Analitika ilә bağlı fәaliyyәt üçün әlverişli vaxt deyil. İşiniz uzaq mәsafәlәrdә reversiv hәrәkәtlә bağlıdırsa, sәrvәt olun. Günün ikinci yarısında problemlәrin hәllindә tәlәskәnliyә yol vermәyin.



**Dolça** - Aktiv, enerjili olun. Qeyri-fәallıq vә süstlük әleyhinizәdir. Dәyişәn şәrtlәrә, situasiyadakı fәrqli mәqamlara alışmağa çalışın. Yaranmış imkanlardan bәhrәlәnin. Adi problemlәr trivial olmayan hәllәr tәlәb edir.



**Balıqlar** - Günün ilk yarısından etibarәn problemlәrin sayı artacaq. Yaxınlarınız diqqәt, problemlәr isә aktiv hәllini tәlәb edir. Texnikanın qәflәtәn sıradan çıxması, yolda tıxaclar, vәd etdiyiniz görüşә gecikmәyiniz istisna deyil.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## İsraildә avtomatlaşdırılmış taksilәr peyda olacaq




**İsraildә gәlәn il avtomatlaşdırılmış taksilәrin sınaqları keçirilәcәk.**

"Trend" bildirir ki, "Intel" şirkәtinin baş direktoru Bob Svon Qüds şәhәrindә özü hәrәkәt edәn avtomobili sınaqdan keçirib. Hәmin taksilәr üçün proqram tәminatının bu ilin sonunadәk hazırlanacağı bildirilir. Qeyd edәk ki, "Intel" şirkәti ötәn ilin oktyabrında avtomatlaşdırılmış taksilәrin kommersiyalaşdırılması layihәsi üzәrindә işlәdiyini elan etmişdi. Bu layihәdә, hәmçinin "Volkswagen" vә "Champion Motor Group" şirkәtlәri dә iştirak edir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.